**Ə.BABAYEVA**

# MƏN TƏK DEYİLƏM



**UŞAQ VƏ GƏNCLƏR ƏDƏBİYYATI NƏŞRİYYATI**

**BAKI-1961**

## SU AYDINLIQDIR

— Tərlan, bala, qalx... gecikirik...

Tərlan gözünü güclə açıb baxdı. Hava hələ qaranlıqdı. „Görəsən, anam yenə hara tələsir, elə hey tələsir," — deyə fikirləşdi. Saatın kəfkiri isə yırğalana-yırğalana „yat... yat... yat..." deyə Tərlana lay- lay çalırdı. O, gözlərini bərk-bərk yumub təzədən yuxuya getdi...

Bu dəfə kimsə qolundan tutub silkələdi:

— Bala, gecdir, gözlərini aç...

Tərlan dik atıldı: hə, bu gün axı onlar təzə şəhərə uçacaqlar. O, cəld qalxıb geyindi.

Atası çamadanları götürüb aşağı enəndə qonşuları Səriyyə xala Tərlanın o üzündən-bu üzündən öpüb dedi:

— Rəna, qızım, uşaqdan muğayat ol, tez-tez məktub yaz, görüm yeriniz-yurdunuz necədir.

—Səriyyə xala, sizin də ev- eşikdə gözünüz olsun. Yayda da ki, gərək bizə qonaq gələsiniz. Vallah, sizə elə öyrəşmişəm ki!.. Doğru deyiblər, yaxşı qonşu qohumdan yaxşıdır. Sizin üçün yaman qəribsəyəcəyik

Tərlan məhəccərdən yapışıb atasının ardınca aşağı düşəndə Səriyyə xala ilə anası hələ də danışırdı. „Bu arvadlar qəribədir, elə hey danışırlar, dünəndən elə bu sözləri təkrar edirlər".



Aşağıdan maşın siqnalı eşidildi: „Görürsən, atam da darıxır". Tərlan başını qaldırıb dedi:

— Ana, tez ol, axı maşın bizi gözləyir.

Nəhayət anası pillələri enməyə başladı. Səriyyə xala da onların ardınca bir cam su atıb „su aydınlıqdır, yolunuz uğurlu olsun"—dedi. Anası Tərlana yaxınlaşıb əlindəki zənbilə işarə etdi:

— Görürsən, Məstan necə sakit oturub. Heç cınqırını da çıxartmır.

Tərlan gülümsündü. Əyilib zənbilin qapağını bir az da araladı ki, məstan boğulmasın. Məstan yavaş- dan miyoldadı...

Həyət qapısına yetişdilər. Atası, yanlarında şahmat taxtası kimi damalar çəkilmiş maşının qapısını açdı.

Hava tamam işıqlaşmamışdı. Şəhərin küçələrində hələ tək-tük adam görünürdü. Maşın hamar asfaltın üstü ilə şütüyüb gedirdi. Artıq şəhər arxada qaldı. Yolun hər iki tərəfində uca neft buruqları görünməyə başladı. Onların yanında bircə adam da yox idi.

Tərlan atasının çiyninə toxunub soruşdu:

— Ata, o buruqların yanında heç adam yoxdur, bəs onlar öz-özünə necə işləyir?

Atası yana çevrilib Tərlana izah etdi ki, bunları elə qurublar ki, öz-özünə işləyir, yerin dərin qatlarından neft çıxarır. Lakin onlara nəzarət edilir. Əgər biri düz işləməsə, o saat növbətçi operator xəbər tutur...

## TƏYYARƏ MEYDANINDA



Tərlangil təyyarə meydanına çatanda hava tamam açılmışdı. Gümüşü məhəccərli hasarla əhatə olunmuş hündür ağ bina hələ uzaqdan nəzəri cəlbedirdi. Boz qobuların arasında ucalan, ətrafı göy -göyərtili bu bina nağıllarda təsvir olunan əfsanəvi sarayı xatırladırdı. Qarşısındakı hovuzun içində qırmızı balıqlar üzür, narın fəvvarədən suyun üzünə elə bil gümüşü iynələr səpələnirdi.

Sarayın qabağındakı meydança, döşəməsinə narın balıqqulaqları səpələnmiş sarmaşıqlı xiyabana açılırdı. Xiyabanın üstünə nazik çubuqlar vurulmuşdu, bu çubuqlara da sarmaşıq kolları, tənək çilingləri dolaşmışdı. Ağacların yarpağı töküldüyündən xiyabanın üstü damar-damar görünürdü. Quru çubuqlar arasında gəzən külək fürsət tapıb Tərlanın paltosunun

yaxasından içəri soxulmağa çalışır, papağını götürüb, qaçırmaq istəyirdi. Anasının da şalının yelənini yelkən kimi qabardır, saçaqlarını alnına dağıdırdı. Rəna Tərlanın əlindən bərk-bərk yapışıb dedi:

— Görürsən, yenə xəzrinin dəliliyi tutub, ipə-sapa yatmır.

Tərlana isə elə gəlirdi ki, yorğun düşmüş külək, ağacların yarpağı töküldüyündən başını qoymağa yer tapmır; quru budaqların arasında gəzərək heç olmazsa bir yaşıl yarpaq axtarır, tapmadığına görə də qəzəblənir, özünü daş döşəmənin, soyuq səkiləri üstünə çırparaq ağlayır. Tərlanın ona yazığı gəlirdi. Keçən yay yaylaqda o, nənəsi ilə talvarın altında yatmışdı.



Gecə yarı birdən pıçıltı eşitdi. Başını qaldırıb ətrafına göz gəzdirdi. Heç kim yoxdu. Ancaq elə hey kimsə nə isə deyir, Tərlanı yatmağa qoymurdu. O, gözünü yumanda daha bərkdən pıçıldayırdılar. Axırda Tərlan nənəsini oyatdı:

—Nənə, bir gör pıçıldayan kimdir? Elə hey danışır, adamı yatmağa qoymur.

Nənəsi gözlərini açıb ətrafına boylandı, sonra gülümsünərək dedi:

— Yat, bala, burada adam nə gəzir. Pıçıldayan küləkdir. O, yarpaqlarla söhbət edir.

Tərlanın lap yaxşı yadındadır. O, gözlərini yumub onlara xeyli qulaq asdı. Səhərə yaxın pıçıltı kəsildi, külək də başını yarpaqların məxmər sinəsinə qoyub yuxuya getdi.

İndi isə ağaclarda yarpaq yoxdur.

Tərlan anası ilə yaşıl skamyalardan birinə oturdu. Atası isə çamadanları götürüb təyyarəyə qalxan pilləkənə tərəf getdi. Pilləkənin böyründə içərisi çamadanlar, yeşiklərlə dolu qəribə bir maşın durmuşdu. Tərlan atasının ardınca qaçdı: „Ay aman, bu nə böyük şeymiş. Uzaqdan baxanda quş boyda

görunür". Tərlan təyyarənin arxa tərəfinə keçdi. Əlini onun quyruq hissəsinə uzatdı: sopsoyuqdu, elə bil tərləmişdi. Bu vaxt kimsə dedi:

— Ey nə edirsən? Birdən vintlərinə toxunarsan ha?

Tərlan dönüb baxdı qarşısında doqquz-on yaşlarında uzun, arıq bir qız dayanmışdı. Qırmızı yun ləçəyinin altından çıxan nazik hörükləri çiyninin üstündən sinəsinə düşmüşdü.

— Toxunanda nə olar ki!

— Xarab ola bilər. Onda, — o, əlini yuxarı qaldırıb dodaqlarını büzdü. — ffüt... t başı üstə gələrik yerə. Səndəmi bu təyyarəyə minəcəksən?

Tərlan toxunduğu yerləri gözaltı nəzərdən keçirdi: „Birdən bilmərəm, təyyarənin vintlərindən birini əlləşdirərəm ha!" Tərlanın tərəddüdlə təyyarəni nəzərdən keçirməyi qızı daha da şübhəyə saldı; o bir az da yaxın gəlib, əllərini belinə qoydu, Tərlanı başdan ayağa süzərək:

—Yoxsa, elə doğrudan bir şey eləmisən, — deyə soruşdu.

Qızın belə hökmlə danışması Tərlana toxundu. Əlini atıb onun hörüyünü möhkəm dartdı. Qız burnunu yığıb „vay" deyə çığırdı. Sonra da Tərlanın kəkilindən yapışdı, elə yapışdı ki, onun dama-dama təzə şapkası başından yerə düşdü:

— Elə bildin ki, mən dartmaram?!.

Kimsə: — „Kəklik,Kəklik!"—deyə çağırdı. Qız dönüb: „Gəlirəm, gəldim"—deyib təyyarə xidmətçilərinə məxsus sürməyi pencək və dar yubka geymiş, yaxalığında xırdaca təyyarə nişanı olan cavan gəlinə sarı qaçdı.



Tərlan atası, anası və Məstanla təyyarəyə qalxanda təyyarəçi xalanı baş tərəfdə pilotun oturduğu kabinənin qabağında gördü. Kəklik də təyyarənin divarına söykənmiş boş skamyanın üstündə oturub pəncərədən eşiyə baxırdı. Heç beş dəqiqə çəkmədi ki, təyyarə sərnişinlə doldu. Qapını bağladılar.

Birdən elə bil təyyarəni əsmə tutdu, Tərlan dik atıldı. Kəklik isə bayaqkı kimi yenə də „vay" deyib dizlərini qucaqladı. Təyyarəçi xala məzəmmətlə ona dedi:

— Kəklik, nə oldu sənə, qorxdun? Bir ona bax,— deyə o, Tərlanı göstərdi. — Səndən kiçikdir, ancaq heç cınqırını da çıxarmadı. Dur, get otur onun yanında; söhbət edin, başınız qarışsın.

Kəklik qalxıb səndələyə-səndələyə Tərlanın yanına gəldi. Hər ikisi çölə baxmağa başladılar. Təyyarə meydanındakı adamlar, ağaclar, maşınlar ildırım sürətilə qabaqlarından gəlib keçirdi. Birdən təyyarənin çarxları nəyəsə toxunan kimi oldu: „xırıc- xırıc" səslər eşidild. Sonra Tərlana elə gəldi ki, ayaqları yerdən üzüldü. Nə isə bədənində qəribə bir yüngüllük hiss etdi. Titrətmə kəsildi, kəklik dilləndi:

Tərlan dönüb baxdı, qarşısında doqquz-on yaşlarında uzun, arıq bir qız dayanmışdı. Qırmızı yun ləçəyinin altından çıxan nazik hörükləri çiyninin üstündən sinəsinə düşmüşdü.



— Toxunanda nə olar ki!

— Xarab ola bilər. Onda, — o, əlini yuxarı qaldırıb dodaqlarını büzdü. — ffüt...t başı üstə gələrik yerə. Səndəmi bu təyyarəyə minəcəksən?

Tərlan toxunduğu yerləri gözaltı nəzərdən keçirdi: „Birdən bilmərəm, təyyarənin vintlərindən birini əlləşdirərəm ha!" Tərlanın tərəddüdlə təyyarəni nəzərdən keçirməsi qızı daha da şübhəyə saldı; o bir az da yaxın gəlib, əllərini belinə qoydu, Tərlanı başdan ayağa süzərək:



— Yoxsa, elə doğrudan bir şey eləmisən, — deyə soruşdu.

Qızın belə hökmlə danışması Tərlana toxundu. Əlini atıb onun hörüyünü möhkəm dartdı Qız burnunu yığıb „vay" deyə çığırdı. Sonra da Tərlanın kəkilindən yapışdı, eləyapışdı ki, onun dama-dama təzə şapkası başından yerə düşdü:

— Elə bildin ki, mən dartmaram?!.

Kimsə:—„Kəklik, Kəklik!"—deyəçağırdı. Qız dönüb:„Gəlirəm, gəldim"—deyib təyyarə xidmətçilərinə məxsus sürməyi pencək və dar yubka geymiş yaxalığında xırdaca təyyarə nişanı olan cavan gəlinə sarı qaçdı.

Tərlan atası, anası və Məstanla təyyarəyə qalxanda təyyarəçi xalanı baş tərəfdə pilotun oturduğu kabinənin qabağında gördü. Kəklik də təyyarənin divarına söykənmiş boş skamyanın üstündə oturub pəncərədən eşiyə baxırdı. Heç beş dəqiqə çəkmədi ki, təyyarə sərnişinlə doldu. Qapını bağladılar.

Birdən elə bil təyyarəni əsmə tutdu, Tərlan dik atıldı. Kəklik isə bayaqkı kimi yenə də ”vay” deyib dizlərini qucaqladı. Təyyarəçi xala məzəmmətlə ona dedi:

— Kəklik, nə oldu sənə, qorxdun? Bir ona bax,— deyə o, Tərlanı göstərdi. — Səndən kiçikdir, ancaq heç cınqırını da çıxarmadı. Dur, get otur onun yanında; söhbət edin, başınız qarışsın.

Kəklik qalxıb səndələyə-səndələyə Tərlanın yanına gəldi. Hər ikisi çölə baxmağa başladılar. Təyyarə meydanındakı adamlar, ağaclar, maşınlar ildırım sürətilə qabaqlarından gəlib keçirdi. Birdən təyyarənin çarxları nəyəsə toxunan kimi oldu: „xırıc- xırıc" səslər eşidildi. Sonra Tərlana elə gəldi ki, ayaqları yerdən üzüldü. Nə isə bədənində qəribə bir yüngüllük hiss etdi. Titrətmə kəsildi, kəklik dilləndi:



—Elə bil ki, adamın özü uçur, — o əllərini yuxarı qaldırdı, sərnişinlər gülüşdülər.

Hər ikisi baş-başa verib pəncərədən aşağı baxırdılar. Birdən Kəklik soruşdu:

—Hara gedirsiz?

—Təzə şəhərə.

—Çardaxlıya? Buy, mən də ora gedirəm.

—Tək gedirsən?

—Tək niyə oluram, xalam təyyarədə işləyir. Odur hey, sərnişinlərə jurnal-qəzet paylayan mənim xalamdır. Anam Çardaxlıda redaksiyada işləyir. Mən də nənəmin yanında qalıram. Qoca arvaddır, tək qoymaq olmaz. İndi məktəbdən buraxıblar. Gedirəm tətili anamın yanında keçirəm. Keçən yay nənəmlə Çardaxlıya getmişdik. Onda anam bizi maşınla

aparmışdı. — Kəklik ara vermədən danışırdı, — bəs sən necə, oxuyursanmı? Neçə yaşın var? Heç qabaqlar təyyarəyə minmişdin?

Tərlan birinci iki suala cavab verməк istəmədiyindən sadəcə olaraq başını tərpətdi. Ancaq Kəklik bununla kifayətlənmədi:

— Hansı məktəbdə oxuyursan? — deyə soruşdu.

— Bu ildən gedəcəyəm Bəs sənin neçə yaşın var?

— On bir. — Kəklik xalasının yanında dayandığını görüb əlavə etdi: — Tətildən sonra on yaşım tamam olacaq, sonra da ki, on birə girəcəyəm.



Tərlan dinməsə də fikirləşdi ki, qəribə qızdır ha, ancaq yaşını nə yaman böyütdü! Cəmisi məndən bircə yaş böyükdür.

Onlar yenə pəncərədən aşağı baxırdılar. Yer qəribə görünürdü. Kəndlər, şəhərlər, yollar, küçələr yuxarıdan adama çox səliqəli gəlirdi. Yollarda o tərəf-bu tərəfə şütüyən maşınlar xırdaca qara böçəkləri xatırladırdı, özləri də elə asta-asta gedirdilər ki...

Uzaq üfüqdə Xəzərin ağ köpüklü dalğaları sahilin boz sinəsini gəmirirdi. Birdən təyyarə ağ buludun içərisinə girdi. Hər tərəf süd kimi ağappaq idi. Təyyarənin qanadları belə yarıya kimi görünürdü. Kəklik gözünü pəncərədən çəkib dedi:

— Çardaxlıda indi lopa-lopa qar yağır. Anam deyirdi ki, təzə şəhərdə qış çox sərt keçir, yayı isə gözəl olur. Hər istirahət günü anamla meşəyə Həmərsi, böyürtkən yığmağa gedirdik. Hündür dağların qarı heç ərimir. Dağın ətəyilə gedirsən, hər tərəf yamyaşıl otdur, başını qaldırıb görürsən,

zirvəsini qar alıb. Şəhər salınmamışdan qabaq meşəli dağlarda cürbəcür vəhşi heyvanlar varmış.

— Bəs indi onlar hara gediblər?

— Nə bilim, deyirlər ki, onlar qorxudan başqa yerlərə köçüb gediblər.

— Nəyin qorxusundan?

— Necə nəyin qorxusundan, adamların.

— Bəs qabaq Çardaxlıda adam yaşamırdı?

— Yaşayırdı. Anam deyir ki, Çardaxlı qabaq balaca bir oba imiş, indi isə şəhərdir. Şəhərin kənarında gözəl bir göl var. Hələ deyirdilər ki, orda böyük bir dəniz də salacaqlar.

— Heç dənizi də salarlar?..

Bayaqdan bəri uşaqların söhbətinə qulaq asan Tərlanın atası sözə qarışdı:

— Elə bil ki, adamın özü uçur, — o əllərini yuxarı qaldırdı, sərnişinlər gülüşdülər.

Hər ikisi baş-başa verib pəncərədən aşağı baxırdılar. Birdən Kəklik soruşdu:

— Hara gedirsiz?

— Təzə şəhərə.

— Çardaxlıya? Buy, mən də ora gedirəm.

— Tək gedirsən?

— Tək niyə oluram, xalam təyyarədə işləyir. Odur hey, sərnişinlərə jurnal-qəzet paylayan mənim xalamdır. Anam Çardaxlıda redaksiyada işləyir. Mən də nənəmin yanında qalıram. Qoca arvaddır, tək qoymaq olmaz. İndi məktəbdən buraxıblar. Gedirəm tətili anamın yanında keçirəm. Keçən yay nənəmlə Çardaxlıya getmişdik. Onda anam bizi maşınla aparmışdı. — Kəklik ara vermədən danışırdı, — bəs sən necə, oxuyursanmı? Neçə yaşın var? Heç qabaqlar təyyarəyə minmişdin?

Tərlan birinci iki suala cavab vermək istəmədiyindən sadəcə olaraq başını tərpətdi. Ancaq Kəklik bununla kifayətlənmədi:

— Hansı məktəbdə oxuyursan? — deyə soruşdu.

— Bu ildən gedəcəyəm Bəs sənin neçə yaşın var?

— On bir. — Kəklik xalasının yanında dayandığını görüb əlavə etdi: — Tətildən sonra on yaşım tamam olacaq, sonra da ki, on birə girəcəyəm.



Tərlan dinməsə də fikirləşdi ki, qəribə qızdır ha, ancaq yaşını nə yaman böyütdü! Cəmisi məndən bircə yaş bö]ükdür.

Onlar yenə pəncərədən aşağı baxırdılar. Yer qəribə görünürdü. Kəndlər, şəhərlər, yollar, küçələr yuxarıdan adama çox səliqəli gəlirdi. Yollarda o tərəf-bu tərəfə şütüyən maşınlar xırdaca qara böçəkləri xatırladırdı, özləri də elə asta-asta gedirdilər ki...

Uzaq üfüqdə Xəzərin ağ köpüklü dalğaları sahilin boz sinəsini gəmirirdi. Birdən təyyarə ağ buludun içərisinə girdi. Hər tərəf süd kimi ağappaq idi. Təyyarənin qanadları belə yarıya kimi görünürdü. Kəklik gözünü pəncərədən çəkib dedi:

— Çardaxlıda indi lopa-lopa qar yağır. Anam deyirdi ki, təzə şəhərdə qış çox sərt keçir, yayı isə gözəl olur. Hər istirahət günü anamla meşəyə Həmərsi, böyürtkən yığmağa gedirdik. Hündür dağların qarı heç ərimir. Dağın ətəyilə gedirsən, hər tərəf yamyaşıl otdur, başını qaldırıb görürsən, zirvəsini qar alıb. Şəhər salınmamışdan qabaq meşəli dağlarda cürbəcür vəhşi heyvanlar varmış.

— Bəs indi onlar hara gediblər?

— Nə bilim, deyirlər ki, onlar qorxudan başqa yerlərə köçüb gediblər.

— Nəyin qorxusundan?

— Necə nəyin qorxusundan, adamların.

— Bəs qabaq Çardaxlıda adam yaşamırdı?

— Yaşayırdı. Anam deyir ki, Çardaxlı qabaq balaca bir oba imiş, indi isə şəhərdir. Şəhərin kənarında gözəl bir göl var. Hələ deyirdilər ki, orda böyük bir dəniz də salacaqlar.

— Heç dənizi də salarlar?..

Bayaqdan bəri uşaqların söhbətinə qulaq asan Tərlanın atası sözə qarışdı:

— Tərlan düz deyir, dənizi salmazlar. Ancaq indi elə kəndlərimiz, elə şəhərlərimiz var ki, bu yerlərdə süni dənizlər yaradılır. Bu dənizlərin suyu bizim quru, boş səhralarımızı məhsuldar zəmilərə, tarlalara çevirir.

# DAĞ YOLLARI İLƏ

Tərlangil Çardaxlıya qaş qaralanda gəlib çıxdılar. Sərnişinləri təyyarə meydanından təzə şəhərə daşıyan avtobus dolanbac dağ yollarından asta-asta, ehtiyatla keçirdi. Qış öz ağ kürkünü geyinib dağlardan üzü aşağı enmişdi. Ətraf ağappaq idi. Avtobus dağ döşündən dönəndə aşağıda iri qara bir dəlik göründü. Ətrafını qar basmış Qanlı göl yuxarıdan belə görünürdü. Kəklik Tərlanı dümsükləyib dedi:

— Bax, biz ora gedirik. Əvvəllər ona Qanlı göl deyərlərmiş, indi isə onu böyüdüb Çardaxlı dənizi salacaqlar. — Bunu deyəndən sonra, o, böyründə oturmuş anasına tərəf döndü. — Elə deyilmi, ana?

Anası Kəkliyin sözünü təsdiq etdi:

— Elədir, ətraf dağlardan axan sellər hər bahar Qanlı gölü daşdırar, el-obaya ziyan verərmiş. Buna görə də el arasında ona Qanlı göl deyərlərmiş. İndi isə Qanlı gölün yanında elektrik stansiyası tikilir. Çardaxlı çayı da Qanlı göllə birləşdirilir. Burda yaranacaq dəniz ətraf rayonları su ilə, işıq ilə təmin edəcək…

... Avtobus qabağından arx axan bir alçaq barının yanında dayandı. Tərlanın atası iri çamadanları götürdü. Anası Rəna da səbəti, əl çantasını və Məstan pişiyin yatdığı zənbili qaldırdı. Rəna Kəkliyin anası ilə salamatlaşmaq istəyəndə, o da Kəkliyin çantasını götürüb dedi:

— Elə biz də burada düşəsiyik; evimiz bu aradadır, qonşuyuq.

Tərlan arxın üstündən hoppanıb atasının ardınca doqqaza tərəf cumdu. həyətdə pilləkənin altına iri bir köpək bağlanmışdı. Köpək onları körən kimi dartınıb hürdü. Elə bu vaxt başına boz toxunma şal salmış bir arvad eyvana çıxdı. Tərlan onu ilk dəfə idi ki, görürdü. Ancaq arvad onların qabağına çıxıb Tərlanı və anasını bağrına basaraq:

Bıy, başıma xeyir, siz haralarda qalmışsınız? — dedi. — İsmayıl qardaşın teleqramını səhər ertə aldım. Yazmışdı ki, təyyarə ilə uçuruq. Mən də dedim nə var ki, günortaya burada olarlar, ev-eşiyi sahmana saldım, hər bir saat keçdi, iki saat keçdi gəlib çıxmadınız.

Rəna da elə bil onunla çoxdan tanışdı.

—Asya bacı, sənin keyfin necədir, işin-gücün yaxşıdırmı?— deyə ondan hal-əhval tüturdu.

— Keyfin yaxşı olsun, pis deyil.

Tərlangil dəhlizdə ayaqlarını soyunub, içəri keçdilər. Evin bir tərəfinə qoyulmuş dəmir peçin istisi, stolun üstündə sarı samavarın pıqqıltısı Tərlana ləzzət verirdi. Bir az sonra o, stol başında oturub Asiya xalanın süzdüyü çaydan içir, qırmızı moruq mürəbbəsini sarı buğda çörəyinin üstünə çəkib ləzzətlə yeyirdi. Çaydan sonra Tərlan qulaqlı papağını başına qoydu, paltosunu mıxçadan çıxarmaq istəyəndə, anası soruşdu:

—Tərlan, bu axşam vaxtı hara gedirsən?

Asya xala da anasının sözünə qüvvət verdi:

— Ağrın alım, bala, çöl soyuqdur, çıxma, səni soyuq tutar. Sabah gündüz gəzərsən. .

Tərlan dəhlizə çıxıb üzünü aynaya yapışdırdı. O, ömründə bu qədər qar görməmişdi. Hər tərəf ağappaq idi. Ağacların budaqları da qarın ağırlığından

yerə əyilmişdi: göy üzü isə göydü. Bircə tikə də bulud görünmürdü. Elə biləsən onu yuyub təmizləmişdilər. Oradakı ağ buludlar isə yerə enmiş, ağacların üstünə yatmışadı. Pəncərənin arxasında məhəccərə qapqara bir quş qondu. O, Tərlana baxıb qarıldadı. Dimdiyi ilə məhəccərin üstünə yatmış qarı eşələdi. Tərlan pəncərə şüşəsini taqqıldatdı. Quş diksindi. Qanadlarını çırpıb uçdu. Tərlan mətbəxə keçdi. Stolun altına yığılmış odunların arasından nazik bir çubuq çəkib çıxartdı. İri mətbəx bıçağını götürüb çubuğu yondu. Bu ara Asya xala mətbəxə keçdi.

— Oğul, — dedi, — nə edirsən, əlini kəsərsən!

— Kəsmərəm. Quşatan düzəldirəm. Sabah sizin üçün quş vuracağam. Bayaq məhəccərə bir iri quş qonmuşdu. Sabah gərək onu vuram.

— Oğul, o, qara qarğadır. Onu vurub nə edəcəksən ki? Əti acı olur.



Təzə şəhərin təzə mənzillərində hərə öz işini görürdü. Tərlanın anası çamadandan çıxartdığı tül pərdələri pəncərələrə vurdu, stol üstünə ağ süfrə saldı, yorğan-döşəyi açıb çarpayını rahladı. Taxtın üstündə Tərlana yatacaq düzəltdi. Atası stol başında oturub portfelini açdı, bir bağlı kağız, qəzet çıxarıb oxumağa, yazıb-pozmağa başladı. Məstan bütün ev-eşiyi gəzib dolandı, künc-bucağı iylədi, mətbəxə, dəhlizə baş çəkdi, sonra da peçin böyründə yumşaq palazın üstündə oturub əl-üzünü yudu, bığlarını tumarladı.



Quyruğunu bulaya-bulaya Tərlanın yanına gəldi. Ancaq Tərlanın vaxtı yoxdu. Gərək quşatan sabaha hazır olaydı.

Bir az sonra işıqları keçirdilər, Tərlan işini qurtara bilmədi. Quşatanın dəstəsi hazırdı. Ancaq rezin yoxdu ki, başına sarısın.

Tərlan yatağa uzandı. Nazik aypara pəncərədən içəri boylandı. Elə bil o, icazəsiz otağa girdiyi üçün utanırdı. Ulduzlar da uzaqda titrəyirdilər. Görünür qış gecəsinin

ayazından canlarına üşütmə düşmüşdü. Birdən çöldən hənirti gəldi. Kiminsə ayaqlarının altında qar xırıc-xırıc səsləndi. Pəncərənin qabağındakı iri ağacın budaqlarından qar tappıltı ilə yerə töküldü...



Canavar olar ha... Kəklik dedi ki, vəhşi heyvanlar ətraf meşələrdən çəkilib uzaqlara gediblər. Yəqin ki, bir-ikisi qalıb, indi də odur, ağacların arasında gəzişir...

Tərlan yorğanını başına çəkdi. Yorğanın altında öz-özünə: „heç qorxmuram" dedi. Asya xala məsləhət görmüşdü ki, Tərlan bu günlük evdə otursun. „Ancaq sabah hənirti eşidən kimi tüfəngi götürüb çıxacağam bayıra. Gör o canavarın başına nə oyun açacağam".

Tərlan səhər ertə gözünü açanda otaqda kimsəni görmədi. Çarpayının üstünə səliqə ilə ağ tül örtük çəkilmişdi. Görünür evdəkilər çoxdan qalxmışdılar. Tərlan paltarasana sarı durdu. Əynini geyinməmiş pəncərədən eşiyə boylandı. Bu vaxt anası qapını açıb içəri girdi.

— Tərlan, durmusan? Tez əynini gey, həyətə çıx, Asya xala inək sağır. Get tamaşa elə.

Tərlan tələsik geyindi. Pilləkənləri endi. Alabaş onu görüb mırıldandı. Amma nə hürdü, nə də yerindən qalxdı. Ancaq Tərlan divara qısılıb yan- yanı tövləyə tərəf getdi. Tövlənin qapısı açıq idi. İçəridən tünd təzək iyi gəlirdi. Asya xala inəyin böyründə çöməltmə oturub iri sərnicə süd sağırdı. Tərlan kandarda dayandı. İnək başını yana çevirib iri qara gözlərini Tərlana dikdi. Onun alnında, boynunda ağ xallar vardı. Ağzını hey tərpədir, burnunun deşiklərindən buğ çıxırdı. Asya xala başını aşağı salmışdı. Barmaqlarının arasından süd „cız-bız, cız-bız"edə-edə sərnicə tökülürdü. Arabir o, əlini saxlayır: „hə, nə oldu, niyə südünü qısırsan"— deyə Qaşqa inəyə söylənirdi.

Birdən ağacların arasından gün çıxdı. Tərlanın kölgəsi birbaş inəyin üstünə düşdü. Asya xala dönüb baxdı:

—Tərlan, bala, sənsən? Mən də deyirəm Qaşqa niyə südünü çəkir. Oğul, keç içəri, bu tərəfdə dur ki, inək səni görməsin.

Tərlan tövləyə keçdi. Asya xala inəyi oxşaya-oxşaya barmaqlarını işə saldı, süd yenə „cız-bız,cız-bız" eləyə-eləyə sərnicə axdı.

Sonra Asya xala sərnici bir tərəfə qoyub inəyin yelinini təmiz ağ dəsmalla sildi.

Tərlan yaxın gəlib aşağı əyildi. İnək onu görən kimi ayaqlarını döyəclədi. Quyruğunu o tərəf-bu tərəfə yellədi. Tərlan soruşdu:

— Asya xala, niyə elə edirsiniz?

— Əgər dəsmalla yaxşı qurulamasam, yaş qalsa soyuq, külək dəyib Qaşqanın yelinini qurudar, əmcəyində çatlar əmələ gələr, yara olar. Qaşqa da inciyər. Tərlan, bala, yazda Qaşqanın kiçik bir balası olacaq. Onu verəcəyəm sənə. Görək necə bəsləyəcəksən.

Asya xala sərnici götürüb eşiyə çıxdı. Tərlan da onun ardınca getdi. Asya xala bir kasa süd doldurub Rənaya verdi və dedi:

—Qaynat, ver uşağa, qoy içsin. Hələ Qaşqa doğanda ona ağız südündən bulama bişirəcəyəm.

## TƏZƏ ŞƏHƏRDƏ TƏZƏ DOST

Tərlan Qaşqa inəyin qaymaqlı südündən içib mətbəxə keçdi, gecə yonduğu quşatanın başına rezin sarıdı, sonra da paltosunu, papağını geyinib eşiyə çıxdı. Gün doğmuşdu. Qar canına su hopmuş qənd kimi dənəvər olmuşdu. Hava isindiyindən ağacların üstündəki qar lopa lopa yerə tökülürdü. Tərlan hey diksinirdi. Birdən bir qucaq qar tappıltı ilə çiyninə töküldü. Tərlan başını qaldırdı. Alçaq budaqda iri bir qarğa oturmuşdu. O, Tərlana baxıb yenə dünənki kimi qarıldadı. Tərlan quşu nişan aldı.—Ancaq

qarğa qanadlarını budaqlara yatmış qara çırpıb havaya qalxdı. Tərlan üzünü çevirəndə yanında özü boyda bir oğlan gördü. Oğlan gülümsünərək.

— Azca gecikdin, — dedi.

Tərlan quşun qonduğu budağa baxaraq əlini yellədi:

— Eh, qarğa idi, özüm vurmaq istəmədim, — dedi.

Küçə qapısı bağlı idi. Tərlan oğlandan soruşdu:

—Bəs sən haradan gəldin?

Oğlan qonşu həyətə baxan taxta çəpəri göstərib:

— Oradan, — dedi. Sonra qaça-qaça çəpərin yanına getdi. Albalı ağacının böyründəki taxtalardan birini yana çəkib əlavə etdi: — Bizim həyətə gəlmək istəsən buradan keçə bilərsən.

Beləliklə Tərlan təzə şəhərdə özünə təzə dost tapdı. Bu dostun adı Altay idi. Özü də ikinci sinifdə oxuyurdu.

— Səhər ertə həyətinizdən maşınla gedən sənin atandı? — deyə Altay soruşdu.

Tərlan çiyinlərini çəkdi

— Nə bilim, mən yatmışdım, — dedi.

—Sənin atan şəhərimizə yol çəkəcək, elə deyilmi? Özü də mühəndisdir.

Tərlan təəccüblə soruşdu:



—Sən bunları haradan bilirsən?

— Bilirəm də, bax o dağı görürsən? — Tərlan oğlanın göstərdiyi səmtə baxdı.

— O zülləsi haça dağı deyirəm, onu partladıb yol salacaqlar. Görürsən, Asya xala pəncərələrə çalım-çarpaz kağız yapışdırıb. Bütün evlərə xəbər veriblər ki, dağı partladacaqlar, şüşələrə kağız yapışdırın, qırılmasın. Biz də, Asya xala da, hamı, hamı yapışdırıb.

Kimsə obiri həyətdən „Altay, Altay"—deyə çığırdı, — Anam çağırır, indi dədəmə yemək aparacağam, istəsən mənimlə gedək. O, tikintidə torpaqsoran qurğuda işləyir.

Səs yenə „Altay, Altay"—deyə təkrar etdi. Altay çəpərin taxtasını yana çəkib: — Gəlirəm, ana, bu dəqiqə gəlirəm, — dedi. — O, dəlikdən keçə-keçə Tərlana:— Hazırlaş, eşiyə çıx, gözlə, beş dəqiqədən sonra gedirik, — deyə əlavə etdi.

Tərlan quşatanı cibinə basıb küçəyə çıxdı. Bir az sonra Altay əlində səbət doqqazın qabaqında göründü. O, Tərlana əl elədi.

Qartəmizləyən maşınlar qarı səkilərin kənarına verdiyindən uşaqlar yolun ortası ilə gedirdilər. Bir-birinin ardınca gəlib keçən yekə yük maşınları sulu palçığı yolla gedənlərin üstünə sıçradırdı. Ancaq buna heç kim əhəmiyyət vermirdi.

Yolun kənarında böyük bir sahə hasara alınmışdı. Tərlangil hasarın açıq qapısından içəri keçən traktorun dalınca həyətə girdilər. Böyük bir sahədə yerin altında tikinti işləri gedirdi. Nəhəng qaldırıcı kranlar xortumlarını göyə qaldırıb uğultu ilə o tərəf-bu tərəfə çönürdülər.

Tərlan dostunu dümsükləyib:

— Burda nə edirlər belə? — deyə soruşdu.

Altay maşınların qulaq batıran uğultusunda səsi eşidilsin deyə çığırdı:



—Traktor zavodu tikirlər.

— Bəs yerin altında niyə?

Böyürdəki maşının içərisində oturmuş şofer gülümsünərək:

—Yerin altında tikmirlər, zavodun özülünü bərkidirlər ki, sonra maşınların ağırlığına davam gətirsin.

Elə bu vaxt içi sement dolu iri bir yük maşını gəib qapıda durdu. Özünə yol açmaq üçün aramsız siqnal verməyə başladı. Tərlangilin böyründəki maşın irəli getdi. Uşaqlar da yüyürüb darvazadan eşiyə qaçdılar. Yol açıldı. Maşın uğultu ilə içəri keçdi, barının böyründə dar dəmir yolunda dayanmış platformaya yanaşdı. Şofer kabinadan başını çıxarıb o üz-bu üzə baxdı, sonra maşının qabaq hissəsi yavaş-yavaş yuxarı qalxdı. İçərisindəki sement axıb platformaya töküldü. Ətrafı duman kimi toz götürdü.

Uşaqlar üst-başlarını çırpa-çırpa barının böyrü ilə qaçıb getdilər. Bir az sonra enli kanalın içindən keçməli oldular. Kanalda torpaq işləri qurtarmışdı. Betonlaşmamış yerlərinə taxta armaturlar vurulmuşdu.

Bundan o tərəfə böyük bir sahə tikanlı məftillə əhatə edilmişdi. Altay məftillərə çatanda durdu. Əlindəki zənbili yerə qoyub, tikanlı məftilə baxdı. Sonra boynunu qaşıyaraq başını tərpətdi. Tərlan da gəlib onun yanında dayandı:

— Nə olub ki, niyə durduq? —deyə soruşdu.

—İki gün bundan əvvəl burada bu məftillər yoxdu. Qanlı gölə kanalın üstündən kəsmə yolla gedib-gəlirdik. İndi gərək o təpənin dövrəsinə dolanaq.

— Dolanaq da!



— Di yaxşı, onda gəl qaçaq, görək kim-kimi ötəcək,—bunu deyib Altay götürüldü. Məftilin yanı ilə gedən dar cığırla, dağ yollarına alışan qarapaça kimi elə çəld, sərrast qaçırdı ki, Tərlan ona çata bilmirdi. O, təpəni burulanda ayaq saxlayıb arxasına baxdı. Tərlan ondan çox dala qalmışdı.

Altay səbəti yerə qoyub dostunu gözləməyə başladı. Tərlan tərlədiyindən paltosunun yaxasını açmışdı. Papağının da qulaqları yellənirdi. O, tövşüyə-tövşüyə gəlib dostuna çatdı. Buradan şəhər ovuc içi kimi görünürdü. Hər yerdə qaldırıcı kranların göyə baxan uzun xortumu nəzərə çarpırdı. Uşaqlar təpənin döşündə dayanıb qırmızı, göy, boz daşlardan tikilməkdə olan binalara baxırdılar. Tərlan qabağı sütunlu binanı göstərib soruşdu:

— Ora nədir elə? Teatrdır?

— Hansı? O qırmızı daşdan olan evi deyirsən? Ora məktəb olacaq. Bu payızdan mən o məktəbə gedəcəyəm. Üç mərtəbəsi var. Bax, ordakı iri pəncərəni görürsən? Mən orada oxuyacağam. Özü də lap pəncərənin yanında oturacağam.

— Nədən bilirsən ki, orada oturacaqsan?

Altay gözünü qırmızı tufdan tikilmiş binadan ayırmadan əlini havada yellətdi:

— Eh, mən ora o qədər gedib baxmışam ki... Otaqların hamısını gəzmişəm. İndi içərisində rəngsazlar işləyir. O iri pəncərədən elektrik stansiyası lap yaxşı görünür. Kanala su gələndə çıxıb həmin pəncərədən baxacağam.

Tərlan Altayın göstərdiyi pəncərəyə həsədlə baxıb dedi:

— Altay, məni də qoyarsan böyründə durub baxım?

— Niyə qoymuram. İkimiz də durub baxarıq. Atam deyir ki, stansiya qurtarandan sonra kanalın üstündən qırmızı lent çəkəcəklər. Tikintidə kim ən yaxşı işləyibsə o gəlib bu qırmızı lenti kəsəcək, elektrik stansiyası da işə düşəcək. Onda sən ikinci sinifdə, mən isə dördüncüdə oxuyacağam.

Uşaqlar təpənin döşündə durub qırmızı tufdan tikilən, qabağı sütunlu məktəb binasına heyran- heyran baxırdılar.

Altay zənbili qalldırıb dostuna dedi: —Gedək, gecikirik, atam gözləyir. Təpənin döşü ilə qalxdıqca qəribə bir uğultu eşidilirdi, uğultu getdikcə artırdı. Tərlan ayaq saxlayıb soruşdu.

—O nədir elə uğuldayır?

—Çardaxlı çayıdır da. Qabaqdakı dikdiri çıxanda özün görəcəksən. Burada o, dərəyə töküldüyü üçün belə gurultu qoparır...

Tərlangil təpənin döşü ilə qalxdıqca qabaqda ucalan başı qarlı İlanlı dağın qoşa zirvəsi də elə bil yuxarı qalxırdı. Uşaqlar yolayrıcına çatanda qəribə bir mənzərə açıldı: ucu-bucağı görünməyən düzlə sakit-sakit axan Çardaxlı çayı İlahlı dağın ətəyindəki dərəyə tökülən yerdə kükrəyib daşır, dərə boyu çapa-çapa üzü aşağı can atır, sağ tərəfdə qabağını kəsən Sarı dağı ikiyə bölərək gözdən itirdi. Təpə döşündə dayanıb tamaşa edəndə adama elə gəlirdi ki, Çətindərənin sükutunu pozan Çardaxlı çayına Sarı dağın acığı tutub. O, yay kimi əyilən qaşlarını çataraq qəzəblə çaya baxır, sonra da nəhəng ağzını açıb Çardaxlını udur. İlanlı dağın ətəyində üç tərəfdən dağlar və təpələrlə əhatə olunan Çətindərə nəhəng bir hovuza oxşayırdı. Həmin hovuzun bir tərəfi Qanlı gölə baxırdı.

Altay dərənin sol tərəfi ilə silsilə kimi uzanan təpələri göstərib dedi:

—Bax, həmin təpənin o üzü Qanlı göldür. Atam orada dambada işləyir.

Hovuza oxşar Çətindərənin içindən dar dəmir yolu keçirdi. Xəndəkdə bir neçə ekskavator işləyirdi. Alt tərəfdə işləyən ekskavatorun təknəsi nəhəng bir əlin ovucu kimi torparı qamarlayıb yuxarıya tökür, üstdə duran ekskavator da təpə kimi yığılan torpağı təknəsinə doldurub platformaya boşaldırdı. Yuxarıda duran maşın aşağıdakına nisbətən kiçikdi. Ancaq o, elə cəld işləyirdi ki, aşağıdakı ekskavatorun təknəsi bir dəfə enib qalxanda o iki-üç dəfə hərlənir, özü də elə ahəngdar işləyirdi ki, adam elə hey dayanıb baxmaq istəyirdi. Zəncirdən sallanan təknə yüngül bir top kimi göyə qalxıb enirdi. Altay yuxarıda dayanan kiçik ekskavatoru göstərib dedi:

—Qara Zeynalın maşınıdır. Görürsən neçə işləyir! Tikintidə ondan yaxşı işləyən yoxdur. Atam deyir ki, gündə altı-yeddi yüz kubmetr torpaq yükləyir.

Bilirsən bu nə qədər eləyir? Lap çox, bax o təpəni görürsən, o böyüklükdə. Mən də böyüyəndə ekskavatorçu olacağam.

—İndi götürməzlər?

Altay dinmədi. Sonra papağını peysərinə itələyib qaşqabağını salladı.



—Getmişdim, götürmədilər.

—Niyə götürmədilər? Öyrənəndən sonra işləməyə nə var ki? Bu düyməni basacaqsan təknə aşağı düşəcək, o birini çəkəcəksən yuxarı qalxacaq. Burada çətin nə var ki?!.

—Deyirlər çətindir, hələ bacarmazsan. O gün getmişdim. Dedim: Zeynal dayı, nə olar məni də götür yanında işləyim. Dedi ki, yaxşı, gəl danışaq, görək torpağın təknəsini neçədən qaldırırsan?

—Deyəydin ki, elə havayı.

—Yox, elə demədim. Soruşdum ki, siz neçədən qaldırırsınız? Dedi: mən iki şahıdan, ancaq qoçaq oğlana oxşayırsan, sənə gərək bir manatdan nırx kəsək.



Elə bunu deyəndə ətrafda duran fəhlələr gülməkdən uğunub getdilər. Bildim ki, Qara Zeynal məni lağa qoyub, qaçıb getdim.

—Bəlkə elə doğru deyirmiş!

Altay köksünü ötürdü.

—Yox, lağa qoyurdu!

Uşaqlar danışa-danışa dəmir yolunu keçib, xəndəyə düşdülər. Altay qabaqda ucalan ikibaşlı Sarı dağın yarığını göstərərək dedi:

—Atam deyir ki, dağın iki başı arasındakı yarığı tutandan sonra Çardaxlı çayı kəməndə düşəcək, yatağını dəyişməli olacaq. —Altay ayağını yerə döyəcləyərək: —Bax, buraya, bu xəndəyə töküləcək. Burada Çardaxlı dənizi olacaq—o, xəndəkdəki bir çuxuru göstərərək əlavə etdi: —Kim bilir, bəlkə bu çuxurda qızıl balığın balaları üzəcək, biz də qayıqla gəlib tor atacaq, balıq tuqacağıq.

Tərlan ətrafına göz gəzdirib: —hm...—dedi,—deməli, biz dənizin dibilə gəzirik. Şəhərdə yoldaşlarıma danışsam ki, Altayla Çardaxlı dənizinin dibində gəzirdik, heç kəs inanmayacaq.

Bu vaxt arxadan maşın siqnalı eşitdilər. Uşaqlar yoldan kənara çəkilib „QAZ-51" markalı maşına yol verdilər.

Əyninə meşin gödəkcə geyinmiş şofer uşaqlara çatanda maşını tormozlayıb, başını brezent pəncərədən çölə çıxartdı:

—Uşaqlar, bilmirsiniz buradan dambaya yol varmı?

Altay cəld yaxın gəlib, əlini sağa uzatdı:

—Bax, o təpənin böyründən dolanıb sağa dönərsiniz, həmin yol birbaş dambaya gedir. Biz də elə ora gedirik.

Şofer böyründəki qapını açıb:—Elə isə minin, qoçaqlar,—dedi.

Altay və Tərlan cəld maşına minib, arxa tərəfdəki skamyada oturdular.

Qabaqda sırayla düzülən təpələri keçəndən sonra Qanlı göl göründü. Dambaya çatanda sürücü maşını saxlayıb uşaqları düşürtdü.

# NƏHƏNG ÇƏKMƏLƏR GEYƏN ADAM

Sahildən on-on beş metr aralı suyun içərisində yedək gəmisinə oxşar geniş göyərtəli bir gəmi durmuşdu. Gəmidən sahilə uzanan dar körpünün üstü ilə bir cüt enli boru uzanırdı. Uşaqlar əl-ələ tutub körpünün üstü ilə gəmiyə sarı getdilər. Göyərtədən maşınxanaya qalxan dəmir pillələrlə yuxarı çıxdılar. İçəridən qulaqbatırıcı uğultu gəlirdi. Elə biləsən, uca dağın başından böyük bir şəlalə axıb tökülürdü. Altay alçaq qapıya işarə edərək:—Atam burada işləyir,—dedi və qapını itələdi. İçəridə əyninə sırıqlı kombinizon geyinmiş uca boylu, enli kürəkli bir kişi dayanmışdı. Onun arxası qapıya tərəf idi. İri çərçivəyə vurulmuş elektrik cihazlarını diqqətlə nəzərdən keçirdiyindən geriyə dönmədən:—Kimdir?—deyə soruşdu. —Ata, bizik,—deyə Altay dilləndi. Qapıdan içəri girən külək Altayın atasının saçlarını dağıtdı.

—Oğul, qapını çək. Bu saat qurtarıram. Beş dəqiqə gözləyin,—deyib o, pəncərənin yanında uşaqlara yer göstərdi.

Aşağı göyərtə pəncərədən yaxşı görünürdü. Uşaqlar baş-başa verib çölə baxmağa başladılar. Göyərtədə dövrəsinə yoğun metal kəndir sarınmış çarxa oxşar bucurqad sürətlə fırlanırdı. Bucurqad hərləndikcə yekə çərçivələrə bərkidilmiş silindri hərəkətə gətirirdi. Silindrin altında su puçur- puçur qaynayıb ətrafa sıçrayırdı. Sahilə qoyulmuş iki maşın qabaqdakı dik qayalara on-on beş metr uzunluğunda iti su şırnağı vururdu. Sahilin torpağı suyun gücündən ovulub tökülürdü.

Altay atasına mane olmamaq üçün pıçıltı ilə dedi: —Uf, görürsən monitorlar necə işləyir! Bu ara Altayın atası işini qurtarıb uşaqlara tərəf döndü:

—Oğul, yeməyə nə gətirmisən?—deyə soruşdu, gözlərini qıyıb Tərlana baxdı.

Altay əlini dostunun çiyninə qoyub: —Bu, bizim qonşuluğumuza köçən mühəndisin oğludur,—dedi. Sonra pəncərədən eşiyə işarə edərək

soruşdu:—Ata, yaza kimi o sahili uçurub Çardaxlı dənizini Qanlı gölə birləşdirəcəksiniz, elə deyilmi?

Altayın atası gülümsündü:

—Elədir, biz burada Qanlı gölün qayalıq sahilini uçurdacağıq, o tərəfdə də Çətindərədə Çardaxlı çayını kəməndə salacaqlar. Beləliklə, Çardaxlı dənizi yaranacaq.

Atası danışdıqca Altay hey dostuna baxaraq deyirdi:

—Hə, görürsən, gördün, yoxsa sən mənim dediklərimə inanmırdın?—deyə təkrar edirdi.

Tərlan gah sahildə uğultu qoparan monitorlara, gah da Çardaxlı dənizini yaradan bu hündür boylu, enli kürəkli adama heyran-heyran baxırdı.

Bu ara Altayın atası səbəti götürüb kayuta getdi. Uşaqlar da onun ardınca aşağı göyərtəyə düşdülər.

— Gəl biz də ora gedək. İndi atam torpaqsoran maşını keçirəcək.

Uşaqlar maşınxanaya açılan qapının kandarında durub başlarını içəri uzatdılar. Sahildən torpaqsoran qurğuya uzanan enli borular sən demə buradan gəlib keçirmiş. Altay dedi:

—Bax, torpaqsoran qurğu buna deyirlər.

Maşınxanada divara söykədilmiş bir cüt iri rezin ayaqqabı Tərlanın nəzərini hər şeydən artıq cəlb etdi. Görünür bu nəhəng bir adamın, bəlkə də divin ayaqqabıları idi. Ancaq Altayın atası əyilib ayaqqabını ayağına geyməyə başladı, sonra da əllərinə yekə rezin əlcəklər taxdı. Belə ayaqqabılarda və əlcəkdə o, çox qəribə görünürdü. Lap Tərlanın kinoda gördüyü "təpəgöz divə" oxşayırdı. O, bu geyimdə divardakı şkafa yaxınlaşdı. Şkafın qabağında yerə rezin ayaqaltı salınmışdı. Rezin ayaqaltının üstündə durub şkafın qapısını açdı, buradakı qaynaqları və dəstəkləri nəzərdən keçirəndən sonra sükana bənzər dəstəyi asta-asta döndərdi. Onun hərəkətlərini izləyən Tərlan pıçıltı ilə dostundan soruşdu:

—Atan nə edir?

—Cərəyanı kəsir.

Dəstək dönən kimi uğultu kəsildi. Uşaqların ayaqları altında titrəyən döşəmənin də əsməsi dayandı.

—Bəs ayağına o ayaqqabıları niyə geyinib?

—Boy, bilmirsən?—O, şkafı göstərərək, — orada elə elektrik cərəyanı var ki, gözünü açıb-yumana kimi adamı külə döndərər. Rezin ayaqqabıdan, əlcəkdən isə keçmir.

Altayın atası əlcəkləri soyundu. Ayaqqabıları sıyırıb çıxaranda Tərlandan soruşdu:

—Oğul, neçənci sinifdə oxuyursan?

Tərlanın əvəzinə Altay cavab verdi:

—Ata, o, hələ oxumur. Bu ildən dərsə gedəcək.

Onlar üstündə „maşınxana" yazılmış tikilidən çıxdılar. Yuxarı göyərtədəki kayuta qalxdılar. Bura ta divara söykənmiş ensiz çarpayının qabağında kiçik bir stol vardı. Altayın atası stolun üstünə qəzet döşədi. Mürəkkəb qabını və qələmi bir tərəfə çəkib, səbətdən çıxartdığı sarı buğda çörəyini, iki-üç baş soğanı stolun üstə qoydu. Sonra dəsmala bağlanmış kiçik qazançanı çıxartdı. Qapağını qaldırıb baxdı, ağzını marçıldatdı: „Bəh- bəh, oğlum mənə nə dadlı, nə ləzzətli kələm dolması gətirib" deyə Altayı təriflədi. Kələm dolmasının iyi doğrudan da çox xoş idi.

Tərlanın ağzı sulandı, boğazı qıcıqlandı. Yaman yemək istəyirdi. İndi ağlına gəldi ki, səhər ertə heç bir şey yeməyib, bircə stəkan süd içib, evdən də çoxdan çıxıb. Yəqin anası onun nigarançılığını çəkir. „Axı evdən çıxanda heç anama demədim" deyə fikirləşdi. „Yaman acığı tutacaq. Mən nə biləydim ki, Altayın atası belə uzaqda işləyir". Tərlan divardan asılmış saata baxdı. Qəribə saatdır, bıy gözləri də var. Divar saatında pişik üzü təsvir olunmuşdu. Saatın kəfkiri o tərəf-bu tərəfə yırğalandıqca pişiyin gözləridə o üz-bu üzə çevrilirdi. Kiçik əqrəb ən iki rəqəmini bir azca ötüb keçmişdi. „Bir gör saat neçədir". Tərlan qızardı:

—Altay, bəs getmirik? deyə soruşdu.

—Bu saat, atam yeyib qurtarsın, qabları alıb gedək.

Altayın atası baş soğanları yumruğu ilə vurub əzir, soğanın çəhrayı qabığı partlayan kimi otağa göz açışdıran, burnu göynədən bir qoxu yayılırdı. O, soğanı vaaq-varaq çıxarıb duza batırır və ağzına oyurdu. Elə iştahla yeyirdi ki!.. Heç gözləri də acışmırdı. Altayın atası indi Tərlana nağıllarda eşitdiyi igidləri xatırladırdı. O, dağları yerindən qoparan əhəng maşınları bir göz qırpımında dayandırır, ayağına nəhəng çəkmələr, əllərinə yekə əlcəklər geyinib gəzir, acı soğanı da elə yeyir ki, heç gözü də acışmır... Bu saat da nə yaman qabağa gedir, özü də lap Məstan pişiyə oxşayır. Yazıq Məstan, yəqin mənsiz darıxır. Tərlan dəyirmi pəncərənin qabağında dayanıb Qanlı gölə baxa-baxa belə fikirləşirdi. Pəncərə hündür olduğundan yalnız uzaqlardakı qarlı dağlar və bir də boz səma görünürdü.

Altay qab-qacağı səbətə yığandan sonra uşaqlar getməyə hazırlaşdılar. Altayın atası mıxçadan papağını götürüb dedi:

—Gedək, sizi ötürüm.

Soyuq külək qalxmışdı. Bayaqdan gölün üzü hamar idi, qara güzgünü xatırladırdı. İndi isə onun sinəsində minlərlə ağ yarıqlar vardı. Körpünü keçəndən sonra Altayın atası yanlarından ötən yük maşınlarından birini saxlayıb soruşdu:

—Ə, cavan oğlan, hara gedirsən?

— Şəhərə.

—Traktor zavodunun yanından ötməyəcəksən?

— Necə bəyəm, ötəcəyəm.

—Onda bu uşaqlarıda apar. Zavodun yanında düşürərsən.



Oğlan kabinkanın qapısını açıb, uşaqları içəri buraxdı.

Tərlan lap onun böyrünə qısıldı, Altay da qapı tərəfdə oturdu. Maşın yola düşəndə Altayın atası papağını götürüb yellətdi. Uşaqlar da maşın sahildəki tikilinin tinini dönənə kimi pəncərədən əl elədilər.

# HƏKİM ƏMİ

Axşam Tərlan taxtın üstündə oturub Məstanla oynayırdı. Çöldə sulu qar yağırdı. Səhərki səyahətdən sonra anası onu xeyli danlamış və həyətə çıxmağı qadağan etmişdi. Əslində Tərlan heç özü də çıxmaq istəmirdi. Ancaq Altay gəlsəydi, nə yaxşı olardı. Görəsən Kəklik haradadır? Söz vermişdi ki, ertəsi gün gəlib Tərlanı tapacaq. Ancaq gəlib çıxmırdı. Nə yaman soyuqdur. Elə bil Tərlanın kürəyində minlərlə qarışqa gəzirdi. Boğazı da göynəyirdi. Anası yemək stolunu rahlayırdı. O, padnosda istiot, duz, şoraba gətirdi, sonra mətbəxdən çığırdı:

—Tərlan, gəl mənə kömək elə, indi atan nahara gələcək.

Tərlan sürüşüb taxtın üstündən düşdü. Məstan da onun ardınca mətbəxə qaçdı Anası çörəyi fal- fal doğrayıb boşqaba yığdı və Tərlana uzatdı:

—Apar, çəngəl-bıçağı stolun yeşiyinə yığmışam, onları da çıxart süfrəyə düz.

Həyətdə Alabaş hürdü. Eyvana çıxan pillələr cırıldadı. Tərlan qapıya sarı atıldı. Elə bu vaxt atası kandarda qaloşlarını çıxara-çıxara hündürdən dedi:

— Bu da mən. Gəldim! Adam-adam iysi gəlir, yağlı badam iysi gəlir Tərlan bilirdi ki, atası evə çox ac qayıdanda həmişə belə deyir.

O, dəhlizdə soyunub əl-üzünü yuyandan, qurulanandan sonra otağa keçdi. Peçin yanında dayanıb əllərini bir-birinə sürtə-sürtə süfrənin üstünə köz gəzlirdi.

Bu vaxt Rəna da dəsmalla tutduğu isti qazanı peçin üstə qoydu. Tərlanla atası stol başına keçəndə Rəna boşqablara çəkdiyi ətirli pitini qabaqlarına

düzdü. Asya xalanı da çağırdılar. Asya xala da bir nəlbəki sarımsaqlı bibər gətirdi. Tərlanın atasına sarı uzadlıb dedi:

—İsmayıl qardaş, yeyin, özüm tutmuşam.

Tərlan bir-iki qaşıq yeyəndən sonra əlini çəkdi. Bayaq Altayın atasının yediyi kələm dolmasını xatırladı.

Asya xala soruşdu:

—Bala, niyə yemirsən?



Tərlan boşqabı geri itələyib dedi:

—Mən kələm dolması istəyirəm.

Anası hündürdən güldü:

—Bıy başıma xeyir, kələm dolması hardan yadına düşdü. Ye, oğul, bu gün onsuz da taqsırın çoxdur.

Asya xala da közü ilə işarə etdi ki, tez naharını yesin.

Atası soruşdu:

—Oğul, özün de görüm nə edibsən?

Tərlan başını sağ əlinə söykəyib anasına baxdı. Ancaq gözlərinin qabağında göy-qırmızı həlqələr dolanmağa başladı. Anasının üzü bu həlqələrin arxasında görünməz oldu. Elə bil başı boynuna ağırlıq edirdi.

Şorabanınmı, ya soğanınmı, acısından gözləri də yaşardı.

Rəna stol arxasından qalxıb əlini Tərlanın başına qoydu:

—Boy, bala, başın nə yaman istidir,—dedi.

... Sonra daha nə oldu Tərlan xəbər tutmadı.

Ertəsi gün Tərlan gözlərini açanda anası başının üstündə durmuşdu. Çarpayının qabağında əyninə ağ xalat geymiş, gözü çeşməkli bir nəfər oturmuş, qulaqlarına da nazikboru keçirmişdi. Tərlan ağ xalatlı adamı görcək üstündən yorğanı itələyib yatağın içində oturdu. Əllərini anasına sarı uzadıb dedi:

—Ana, mən xəstə deyiləm.. Dururam.—Ancaq gördü ki, yenə başı üstündə durmur, boğazı da bərk göynəyir. Birdən burnu acışdı, ağzını açıb iki dəfə asqırdı.

Anası yorğanı onun çiyinlərinə çəkib dedi:



—Adam da həkimdən qorxar, uşaq-zad deyilsən ki! Sabah-birigün məktəbə gedəcəksən.

—Mən axı xəstə deyiləm.

—Kim deyir ki, xəstəsən, həkim əmi bizə qonaq gəlmişdi, dedim ki, bir sənə baxsın.

Tərlan çarəsiz köynəyini qaldırdı, hətta ağzını da açıb bir neçə dəfə „Aaaa..." dedi. Həkim Tərlanın boğazına diqqətlə baxdı, başını yırğalayıb:

—Bərk soyuq dəyib,—dedi,—ağ ciyər iltihabı başlayır. Gözləyin. Yataqdan qalxmağa qoymayın.

Gecə Tərlanın hərarəti daha da qalxdı. Anası onu arxası üstə çevirib kürəyinə banka saldı. Ertəsi gün ona acı dərmanlar içirtdilər. Hər dəfə dərman şüşəsi əlində Tərlanın yatağına yaxınlaşanda anası deyirdi:

— İndi gör anandan icazəsiz getməyin nəticəsi nə təhər olur. Məni də işdən-gücdən qoydun.



Rəna müəllim idi. O, təzə şəhərdəki məktəbdə dərs deməyə təyinat almışdı. Ancaq Tərlanın xəstələnməsi buna mane oldu...

# XOŞ GƏLMİSƏN, BAHAR!

Bir dəfə səhər çağı Tərlan gözünü açanda anasını yenə başının üstə gördü. Elə bildi o, yenə dərman içirtmək istəyir. Tərlan dedi:

—Anacan, daha başım ağrımır, boğazım da göynəmir. Dərman içmək istəmirəm. Rəna dedi:

—Bəyəm mən sənə dərman içirtmək üçün gəlmişəm? Dayanmışam ki, ayılanda səndən muştuluq alam.

—Nə muştuluq, nə olub ki?

—İstəyirəm özün tapasan.

Tərlan fikrə getdi, sonra gülümsünərək dedi: —Hə, bildim. Yəqin Kəklik yanıma gəlib. Anası qaşlarını dartaraq:

—Eh,—dedi,—Kəklik nə vaxtdır Çardaxlıdan gedib. O gün anasına rast gəldim. Dedi ki, bir də yay tətilində gələcək. —Onda Altay gəlib. Anası başını yırğaladı.

—Hə, bildim. Səriyyə xaladan məktub almışıq. Anası yenə başını yırğaladı.

— Yox, tapmadın, — dedi.

Tərlan yatağında qurcalanıb əlini yorğanın üstə çırpdı.

— Elə isə özün de, di tez ol!..

— Qaşqa inəyin bir gözəl-göyçək balası olub. Asya xala da inəyin ağız südündən bulama bişirir.

Tərlan cəld çarpayıdan sıçradı. Anası isə onu təzədən yatağa uzatdı.

— Bala, bu gün hələ sənə eşiyə çıxmaq olmaz. Sabah özünü tamam yaxşı hiss etsən bir az çıxıb gəzərsən. İndi üstünü ört. Pəncərəni açım, otağın havası təmizlənsin.

Tərlan yorğanı çənəsinə kimi çəkdi Rəna pəncərəni taybatay açdı. Tül pərdələr ağ qağayılar kimi qanad çalıb Tərlana tərəf uçdu. Rəna üzünə dağılan saçlarını kənara verib gülə-gülə dedi:

— Sən xoş gəlmisən, bahar. Buyur bizə qonaq ol.

Tərlan təəccüblə soruşdu:

— Ana, sən kiminlə danışırsan?

— Kiminlə? Baharla, gör bir o necə bəzənib-düzənib,—Rəna tül pərdəni tutub qaldırdı, özü də kənara durub, — bir bax,— dedi. Budaqlarını Tərlangilin pəncərə şüşələrinə söykəmiş armud ağacı çiyninə elə bil ağ çuna salmışdı. Pəncərə qəflətən açıldığından budaqlar əyilib qalxırdı. Tərlan soruşdu:

— Ana, yenədəmi qar yağır?

Rəna dedi

— Yox, oğlum, bu qar deyil, ağaçlar çiçəkləyib.

Ana-bala gözünü armud ağacının çiçəklərinə dikmişdilər. Bahar isə gəlişi əziz bir qonaq kimi otağa girib əlinə keçən hər şeyi tərpədir, silkələyir, qış yuxusundan ayıltmaq istəyirdi. Tərlan anasından soruşdu:

— Ana, bəs qış necə oldu? Bahar gələndə o haray gedir ?

Anası dedi:

— Bahar gələndə qış baba kürkünün ətəklərinə yığışdırıb dağların zirvəsinə köçür.

Bir az sonra Rəna pəncərəni örtdü. Armud ağacının budaqları da yırğalanaraq Tərlana „salamat qal" dedilər. Tərlan xəstələnən vaxt şəhərdə bütün pəncərə şüşələrinə çalın-çarpaz kağız yapışdırmışdılar. Hamı bilirdi ki, şəhərə dəmir yol çəkmək üçün adsız dağı partladacaqlar. İndi isə şüşələr tərtəmizdir. Buna görə də Tərlan anasından soruşdu:

— Ana, atamgil adsız dağı partlatdılarmı?

Rəna gülümsündü:

—Adsız dağı da partlatdılar, Qanlı kölün qayalıq sahilini də uçurtdular. Çardaxlı çayının yatağını da dəyişdilər. Bir az sonra Çardaxlı dənizində gəmilər üzəcək. Qanlı göl daha heç kimi qorxutmur.

Tərlan fikirləşdi: gör bir mən xəstələnəndən bəri nələr olub...Çardaxlı çayı kəməndə salınıb, Qanlı gölün qayalıq sahili uçurulub, adsız dağ

partladılıb.. Sonra... Hə sonra qış baba öz kürkünün ətəklərini yığıb dağlara köçüb. Bahar da bəzənib-düzənib, bizim təzə şəhərimizə qonaq gəlib... Daha nələr olub?.. Hə, bir də Qaşqa inək doğub.

## DƏNİZ DALĞALANIR, GƏMİ YIRĞALANIR...

Rəna yemək hazırlamaq üçün mətbəxə gələndə Tərlan stolun üstündən bir neçə vərəq kağız götürüb gəmi qayırmağa başladı. Gəminin başına atasının nazik qələmini keçirtdi. Qələmə iri yelkənlər taxdı, gəminin yanlarına dəyirmi pəncərələr çəkdi. Lap qəribə gəmidir ha...Gəmi Tərlanın göy, sırıqlı yorğanının üstündə səyahətə çıxdı. Arabir dəniz dalğalanır, gəmi yırğalanır, külək vıyıldayırdı. Kənardan baxanlar soruşurdular: görən bu hansı dənizdir? Yelkənli gəminin kapitanı Tərlan isə deyirdi: bilmirsiniz , hansı dənizdir? Çardaxlı dənizidir də! Bu dənizi biz özümüz salmışıq. Tərlan yenə qayçını götürür, kağızları kəsir, doğrayır, irili-xırdalı əlfəcinlər düzəldir. Axı dənizin üstündə gərək qağayı uçsun. Budur, ağ qağayılar gəminin başına dolanır, Tərlanın ayaqları yorğanın altından yığılıb-açıldıqca, dəniz təlatümə gəlir, dalğalanır, gəmi yırğalanır, qağayılar da həyəcanla o tərəf-bu tərəfə uçaraq



fırtınanın yaxınlaşdığını xəbər verirlər...

Bu vaxt qapı açılır. Rəna əlində padnos kənarda dayanıb baxır: dənizdə o qədər həyəcan var ki, anasının içəri girdiyindən Tərlan xəbər tutmur.

— Bala, bu nədir, ev-eşik bütün kağızdır, gör bir nə qədər kağız doğrayıb tökmüsən!

— Bunlar kağız deyil, qağayılardır. Gör necə uçurlar. Çardaxlı dənizi də dalğalanır.

— Bəs belə niyə, nə yaman fırtına qopub! — Rəna padnosu stolun üstünə qoyur, çarpayıya yaxınlaşır, birdən pıçıltı ilə soruşur: — Kapitan, o tərəfdən gəmiyə yaxınlaşan gör bir nədir?

Dalğaların kibrit qutusu kimi atıb tutduğu gəmiyə tərəf bir əl uzanır...



Kapitan yumruğunu gözünə tutur... “Bu nə olar?" deyə fikirləşir. Tüklücə əl yenə gəmiyə sarı uzanır. Rəna yenə pıçıltı ilə deyir:

— Kapitan, aman allah, görünür bu dəniz filidir, bu saat gəmini batıracaq.

Kapitan Tərlan həyəcan siqnalı verir, dəniz fili diksinib sahil qayaları üstündən atılır.

Rəna uğunub keçir:

— Oğul, yavaş, Məstanı yaman qorxutdun. Bir gör tükləri necə qabarıb.

Ana-bala Məstana baxaraq gülürlər. Pişik isə tüklərini qabardıb otağın bir küncünə qısılır. Rəna onu tutub Tərlanın yorğanının üstünə qoyur. Məstanın yaşıl gözləri parıldayır, o, çəpəki-çəpəki böyrü üstə yıxılmış yelkənli gəmiyə baxır.

— Tərlan, indi qalx geyin, gör sənə nə dadlı yemək gətirmişəm. Bax, bu südü gərək axırıncı damlasına kimi içəsən. Qaşqa inəyin südüdür, bu yağ da Qaşqanın südündəndir. Səhər-səhər Asya xala nehrə çalxadı. Dedi ki, təzə yağdan Tərlana ver, qoy yeyib cana gəlsin.

# MƏN TƏK DEYİLƏM



Bu gün Tərlan axşama kimi evdən çıxmadı, dəhlizdən keçib Asya xalanın yanına getdi, Qaşqa inəkdən və onun göyçək buzovundan xəbər tutdu. Mətbəxə gəlib quşatanı axtardı. Axı sabah o, eşiyə çıxacaqdı.

Axşam yatağa uzanmazdan əvvəl pəncərənin qabağına gəldi. Baharı görmək istədi. Uzaq səmadan ay yenə ona baxırdı, elə nazik idi ki... Sanki o da Tərlan kimi xəstəlikdən durmuşdu. Ancaq ulduzlar o dəfəki kimi uzaq, lap uzaq görünmürdülər. Onlar yaxın gəlib göyün pəncərəsindən bahara tamaşa edirdilər. Ay aman, gör nə qədər ulduz var... Bir, iki, üç, dörd... on... yüz, sayı-hesabı yoxdur. Bax, o da yeddiqardaş. Tərlan dərindən ah çəkdi. Yeldiqardaş... O biri ulduzlar elə biləsən darıxır, bunlar isə qol-qola keçirib dururlar. Heç bir-birlərindən ayrılmırlar. Kaş mənim də yeddi qardaşım olaydı. Nə edim lap təkəm... Nə bacım, nə də qardaşım var. Bircə Məstan pişiyim var... Niyə?.. Tək niyə oluram, indi mənim buzovum da var, dostum da var. Altay, Kəklik... Hələ bir məktəbim də var... özü də dağ döşündə tikilib, qabağı sütunlu məktəb... Üç- dörd aydan sonra mən o məktəbə gedəcəyəm, kitablarım, dəftərlərim, portfelim olacaq... O, yenə başını qaldırıb ulduzlara baxdı. Ürəyində: yox, mən sizin kimi tək deyiləm, — dedi.

...Tərlan səhər ertə çəkmələrini geyinəndə kimsə eşikdən pəncərəni taqqıldatdı. Rəna pəncərəyə yaxınlaşıb pərdəni qaldırdı. Eşikdə armud çiçəklərinin arasından bir baş çıxdı. Rəna soruşdu:

— Bala, kim lazımdır?

Tərlan çəkmələrinin qaytanları ardınca sürünə-sürünə pəncərəyə sarı atıldı: — Altay, gəl içəri, — deyə çığırdı. — Mən daha yaxşı olmuşam,—sonra o, anasına dönüb dedi: — Ana, tanımırsan? Altaydır da.

—Haradan tanıyım, bala, sən bir gün, günortada özünə nə tez dost tapdın?

Altay isə görünür deyilənləri eşitmir, hey gülümsünürdü. Onun iri qara gözləri və iki cərgə mirvarı kimi düzülmüş ağ dişləri hey gülürdü.



Bu gülümsəyən gözlərə və dişlərə baxanda adam bilaixtiyar gülmək istəyirdi. Odur ki, Rəna da tanımadığı uşağa baxıb gülümsündü, sonra pəncərəni açıb dedi:

—Bala, eşikdə niyə durmusan? Gəl içəri.

Altay gülümsünə-gülümsünə:

—Yox, indi gələ bilmərəm, məktəbə gedirəm,—dedi və əlini yuxarı qaldırıb çantasını göstərdi.—Məktəbdən qayıdanda gələrəm. Asya xala dedi ki, Tərlan sağalıb ona görə gəldim.



Tərlan dedi:

—Altay, yadından çıxarmayasan ha, məktəbdən qayıdanda bizə gəl. Səninlə işim var.

Altay ağacın budağını buraxdı. Budaq silkələndi, bir neçə ağ ləçək yerə səpələndi. Armud budağı məzəmmətlə başını yırğaladı, Altay çiçəklərin arasında görünməz oldu.



Tərlan səhər yeməyindən sonra tələsik eşiyə çıxmaq istədi. Qapının dəstəyini dartanda Rəna çığırdı:

—Tərlan, hara gedirsən? Əynini yaxşı gey.

Başqa vaxt olsaydı Tərlan deyərdi ki, hava istidir, geyinmək istəmirəm. Ancaq bu gün danışa bilməzdi. Birdən anası acığa düşüb onu eşiyə buraxmazdı. Tərlanın isə çöldə o qədər işi vardı ki...

Rəna ona nazik yay paltosu geyindirdi, başına papaq qoydu, boynuna şərf saldı. Tərlanın acığı tutsa da, dinmədi. Anasının dediklərinə əməl etdi.

Qapını açanda, onu qəribə bir ətir vurdu. Tərlan dərindən nəfəs çəkdi. hava bir udum buzlu su kimi boğazını üşütdü. Ağ, çəhrayı çiçək açmış ağaclar budaqlarını tərpədib Tərlana „xoş gəlmisən" dedilər, quşlar da cik-cik edib bir-birlərinə Tərlanı göstərdilər. Həyətdə təzəcə baş qaldırmış yaşıl otlar, xırdaca çiçəklər günün işığında par-par parıldayırdı. Otaqdan Rənanın səsi gəldi:

—Tərlan, uzağa getməyəsən ha, küçəyə də çıxma, qaçma, tərlərsən, papağını çıxartma...ma...ma...

Tərlan anasının dediklərini eşitsə də, fərqinə varmadı... Elə ancaq axırıncı „ma...ma..." səsləri qulağına çatırdı...

## YARALI QARANQUŞ

...Bahar nə gözəldir!



Tərlana elə gəlirdi ki, o, baharı ilk dəfədir görür. Bəs bu vaxta kimi necə olub Tərlan baharı görməyib? Görünür bahar böyük şəhərlərə gəlmir, uca daş binaları tramvayları, maşınları, izdihamlı küçələri görüb qorxur. Gələndə də yerə sinə-sinə keçir, onun xoş nəfəsi daşların arasından yaşıl otları çəkib çıxarır, orada bahar oğrun-oğrun ağacların üstünə qonur.,

Burada isə o sərbəst gəzir, bahar selləri əlinə nə düşürsə yuyub təmizləyir, ağaclara yaraşıqlı don biçir, boz yamaclara yaşıl xalı salır, qış yuxusundan doymuş arılara, kəpənəklərə, xırdaca böcəklərə deyir:—Bu nə tənbəllikdir, oyanın, qalxın!..

Tərlan əyilib qalxır, gah çicək yığır, gah da otların arasında atılıb düşən bir böcəyi izləyirdi. Bir azdan o, yığdığı çiçəkləri atdı, böcəklərə tamaşa etməkdən də yoruldu. Quşatanı çıxartdı, rezin yaya balaca daş qoyub çəpər dirəyinə keçirilmiş qazançanı nişan aldı: darraq... tənəkə qazança bir neçə

dəfə dirəyin başına hərlənib otların üstə düşdü. Tərlan yerdən bir kərpic qırığı tapdı. Bu dəfə eyvanın məhəccərini nişan aldı:taqq... məhəccərin yağışdan, qardan qaralmış taxtası üstə sarı bir ləkə qaldı. Tərlan ətrafa baxdı; daha nəyi nişan alsın. Bəlkə barının üstündə közəl Məstana xırdaca bir daş atsın? Yox, Məstan yazıqdır. Elə bu vaxt salxım-salxım çi-çəkləyən şabalıd ağacının tüllənginə bir quş qondu. Onun başı, qanadları sürməyi, sinəsi isə ağ-mavi rəngə çalırdı. Tərlan yerdən bir çınqıl daş götürüb, quşu nişan aldı. Bir göz qırpımında quş böyrü üstə yerə düşdü. Tərlan ucadan: „urey" deyib çığırdı. Əvvəl qonşu həyətə qaçıb Altayı səsləmək, „gör bir necə nişan alıram" deyib öyünmək istədi, yadına düşdü ki, Altay məktəbdədir.



Tərlan şabalıd ağacının altını basmış otların üstünə əyildi. Kolları aralayıb quşu götürdü. Onun həmərsiyə oxşayan bənövşəyi gözləri Tərlana zillənmişdi. Barmaqlarının altında ürəyi çırpınırdı. Tərlan quşu ətəyinə qoydu. Əlini onun başına çəkdi. Quşcığaz gözlərini yumdu. Onun həmərsiyə oxşayan gözlərinin üstünü boz pərdə tutdu. Tərlan quşun başını tumarlayaraq pıçıldadı:

„Axı mən səni öldürmək istəmirdim". Dodaqlarını quşun başına yaxınlaşdırdı, onun isti nəfəsindən quş dircəldi, sarı dimdiyi təzədən açıldı. Tərlan heç kim görməsin deyə əyilə-əyilə eyvana qaçdı. Mətbəxə keçdi, mətbəx stolunun üstündəki stəkanın dibində süd vardı. Barmağını südə batırıb quşun aqzına süd damızdırdı. Quş gözlərini açdı. Bu vaxt Altay da gəlib çıxdı. O, Tərlana yaxınlaşıb: —Nə edirsən?—deyə soruşdu.

Tərlan ətəyini açıb quşu göstərdi:

—Həyətdə kolların arasından tapdım.—dedi.

—Bıy yazıq, bu ki, qaranquşdur. Bax sağ qanadı qırılıb. Görəsən onu kim vurub bu günə salıb?

Tərlan çiyinlzrini çəkdi, özlüyündə dedi: „yaxşı ki, quş danışa bilmir".

Altay dedi:

—Tərlan, bilirsən nə var? Gəl onu aparaq babamın yanına görək nə deyir.

—Baban harda olur?

Bu vaxt Rəna əlində səbət içəri girdi. O, uşaqları kandarda görüb soruşdu:

—Yenə hara belə yığışmısınız?

Tərlanın əvəzinə Altay dilləndi:

—Rəna xala, Tərlan kolların içindən yaralı bir qaranquş tapıb,—Tərlan da ətəyini açıb quşu göstərdi.—Deyirəm yazıqdır, ölər. Gedək babamdan soruşaq, görək ona nə vermək olar.

— Babangil uzaqdamı olur?

— Yox, Rəna xala, buradaca yaxında işləyir. Tinimizdəki bağı görmüsünüzmü, ondan o tərəfə, bağçılxıq təsərrüfatında işləyir, şitilliyə baxır.

—Elə isə gedin, amma çox yubanmayın. Tərlan, bu gün atan tez gələcək, nahara gecikməyəsən.

Altay quşu papağının içinə qoydu. Pilləkənləri enib həyətə düşdülər.

Bağçılıq təsərrüfatı mədəniyyət və istirahət parkının böyründə idi. Vaxtilə buraya Çardaxlı meşəsi deyərlərmiş. Şəhər salınanda Çardaxlı meşəsinin ən sıx guşəsini kəsib hasara almış, ayıların, çöl donuzlarının, alapaçaların oylağı olan yüzillik ağacların altına indi rəngbərəng skamyalar düzüb mədəniyyət və istirahət parkı adlandırmışdılar. Bağçılıq təsərrüfatı da şəhər parkına yanaşı böyük bir sahəni tuturdu... Dəmir darvaza enli yola açılırdı. Yolun hər iki tərəfi ilə arx axırdı. Qabaqda aynabənd bina nəzərə çarpırdı

Altaygil binaya sarı getdilər. Aynəbəndin üstünə gün düşdüyündən o, nağıllardakı daş-qaşdan düzəldilmiş əfsanəvi sarayı xatırladırdı, uzaqdan baxanda adamın gözləri qamaşırdı. Elə bil aynabəndin içində yüzlərcə rəngbərəng lampalar yanırdı. Yaxın gəldikcə lampalar bir-bir sönürdü. Uşaqlar aynabənd binaya çatanda içəridən əyninə ağ xalat geyinmiş bir qız çıxdı, O, Altaya baxıb gülümsündü:

—Hə, babanı yoluxmağa gəlmisən?—deyə soruşdu.

Altay dedi:

—Gülzar bacı, babam hardadır?

Qız əlini içəri uzatdı:

—Keçin içəri, ordadır.



Eyvaz baba alçaq kətildə oturmuşdu.

Qabağındakı taxtanın üstündə xırda-xırda əski torbalar vardı. O, eynəyini çıxartdı, gələnlərə baxıb dedi:

—Altay, bala, sənsən? Yaxın gəl görüm. Evdəkilər necədir? · N

—Yaxşıdırlar, baba.

—Hə, bağımıza tamaşa eləməyə gəlmisiniz? Bağımız qiyamət bağdır,—deyib yerindən qalxdı.

Altay papağını irəli tutub:

— Bunların həyətindən tapmışıq,—deyə yaralı qaranquşu babasına göstərdi.—Yazığımız gəlir, bilmirik nə edək ki, ölməsin..

Eyvaz baba iri, qabarlı əlini papağın içinə uzadıb quşu götürdü:

— Hə, qaranquşdur. — O, qaşlarını çatıb.

— Mərdiməzara lənət! — dedi. — Nə çoxdur ziyanəvər adam. Axı bu aciz quşu niyə bu kökə salıb. — O, quşun qanadlarını geriyə qardı. — Qanadı sınıb, — deyə əlavə etdi.

Tərlanın qaşları düyümlənmişdi. Baba quşu təzədən papağın içinə qoyub aynabəndin ortasındakı dəyirmi hovuza sarı getdi. Quşun başını suya saldı. Qaranquş dimdiyini araladı, hülqumu tərpəndi. Eyvaz baba gülümsündü:

— Sağalacaq, su ki, içdi, demək sağalacaq. İndi ona dərman da verərik, lap tez sağalar.

Eyvaz baba stolun yeşiyindən sarı bir həb götürdü, həbi dörd yerə bölüb bir qırığını quşun ağzına qoydu. Qaranquşun haça dili tərpəndi.

— Baba, nədir? — deyə Altay soruşdu.

— Biomitsin. Elə bilirsən quşa dərman vermək olmaz?

Eyvaz baba quşu papağa qoyub uşaqlara qaytardı, Tərlan soruşdu:

— Baba, bəs ona yeməyə nə verək?

— Milçək, xırda böcək, darı, çörək ovuntusu — nə olsa verin. Ancaq pişikdən gözləyin. Evdə pişiyiniz yoxdur ki?

Uşaqlar bir - birlərinə baxdılar. Altay dedi;

— Tərlan, hələlik qoy bizdə qalsın. Yoxsa sizin Məstan girəvəyə salıb...

Tərlan onun sözünü kəsdi.

— Yox, özüm tapmışam, qoy bizdə qalsın, — dedi. — Sonra nə fikirləşdisə qızardı.

Eyvaz baba xırdaca tənzif torbaları səliqə ilə yeşiyə yığandan sonra uşaqlara dedi:

—Gəlin, sizə qəribə bir çiçək göstərim.

Altay ilə Tərlan Eyvaz babanın arxasınca getdilər. Həyətdə al-qırmızı şəbbu güllərilə əhatə olunmuş iri lakin ortasında enliyarpaq bir kol bitmişdi. Kolun qarğıdalı yarpağına oxşayan iri, yaşıl yarpaqları vardı.



Onun tən ortasından tək bir zoğ qalxırdı. Eyvaz baba bitkiyə işarə edib dedi: — Buna yüzillik bitki deyirlər. Keçən il tapmışıq. Çox nadir bitkidir. Yüz il yaşayır. Hər yüz ildən bir tən ortasından beləcə zoğ çıxır. Sonra onun başı iri, ağ çiçək açır. Bu çiçək cəmisi üç gün yaşayıb solur, zoğ quruyur,

bitki tələf olur. Buna görə də el arasında ona yüzillik bitki deyirlər. Çiçəkləyən vaxtı ömrü gödək olduğundan onu hələm-hələm adam görməz.

Eyvaz baba parniklərin yanından keçdikçə uşaqlara deyirdi:

—Bunlar pomidor şitilidir, görürsünüz?— Şitilin üstündə fındıq böyüklükdə göy qozalar vardı. Bunları əsil pomidora oxşatmaq çox çətindi. —Bu cərgə ilə əkilən şitillərin hamısı yelpənəkdir. Bu il məhsulumuz o qədər bol olub ki, bütün qış camaata təzə xiyar və pomidor vermişik. Yolun o tərəfində isə çiçək toxumları əkmişik. Elektrik stansiyası hazır olandan sonra suyumuz bol olacaq, onda biz şəhərimizi gül-çiçək məskəninə çevirəcəyik.

Eyvaz baba söhbət edə -edə yolun o biri tərəfinə keçdi. Tərlangil də arxın üstündən hoppanıb alçaq  şüşəbəndə sarı getdilər.

Altayın babası yerdən bir-iki qarış qalxan kolları göstərərək deyirdi:

— Bu, dəyirmi yarpaqları olan nəstərəndir, o ətirşahdır, yarpaqlarına əlinizi sürtün. Görün nə gözəl ətri var, bu isə şəbbu gülüdür, — O, yarpalarının üstü xırdaca tüklərlə örtülü bitkini göstərdi.

Tərlan Eyvaz babanın göstərdiyi yarpaqlara diqqətlə baxırdı. Əvvəllər ona elə gəlirdi ki, bütün güllərin yarpağı elə eynilə bir-birinə oxşayır. Ancaq indi görürdü ki, hər gülün bir cür yarağı var, heç biri də başqasına oxşamır.

Tərlan dirsəyi ilə Altayı dümsüklədi:

—Altay, babana deyək bir-iki şitil versin, özümüzə bağça düzəldək.

Bu fikir Altaya xoş gəldi.

—Baba, ay baba, — dedi, — bizə də bir-iki şitil ver, həyətimizdə əkək.

Eyvaz baba gülümsündü.

— Arzunuz yaxşı arzudur, — dedi. — Ancaq bu gülləri bəsləmək o qədər də asan deyil. Bunlar da canlıdır, nəfəs alır, yeyib-içirlər. Hərəsinin də bir xasiyyəti var. Bəli, bəli, hərəsinin bir xasiyyəti var, — deyə o, təkrar etdi. —Gərək səbirlə hər birinin arzusunu yerinə yetirəsən, şıltağına dözəsən. Bəziləri günəşi sevir, bəziləri kölgəni, bəzisi də səhər ertə günün şüalarını içir, günortadan sonra kölgədə istirahət etməyi xoşlayır. Elə güllər də var ki,

yalnız gün batandan sonra açılır, bütün gecəni sabaha kimi keşik çəkir, dan yeri ağaranda büzüşüb yuxuya gedir. Bunların da öz aləmi var.

Altay əlini Tərlanın çiyninə vurub dedi:

— Bunlar lap canlı imişlər ki, bircə dilləri yoxdur danışsınlar.

Eynaz baba əyilib parniklərdən birinin qapağını qaldırdı. Bitki başını parnikin şüşəsinə söykəmişdi. Əzilmiş yarpaqlar bir-iki yerdən zədələnmiş, parnikin şüşəsi də iç üzdən tərləmişdi. Eyvaz baba zədələnmiş yarpaqlara baxıb başını buladı:

— Görürsən Gülzarı, — deyə gileyləndi. — Səhərdən iki üç dəfə bura gəlib, ağlına gəlməyib ki, parnik şitilə darlıq edir.

O, yenə əvvəlki söhbətə qayıtdı

— Oğul, sən dedin ki, bircə dilləri yoxdur danışsınlar. Əslinə qalsa, lap dilləri də var, ancaq gərək onların dilini tanasan. Çiçəyə baxan kimi havasından bilirsən nə istəyir, nəyi çatmır, nədən razıdır, nədən narazı. Ancaq bunları mən ona görə demirəm ki, həvəsdən düşəsiniz. Deyirəm, biləsiniz ki, əkinçilik yaxşı şeydir. Bu torpaq ki, var, bizim anamızdır. Onun gərək qədrini bilək. Torpağı bəslərsən, qayğısını çəkərsən bütün varını, yoxunu əsirgəməz. Elə ki, baxımsız qoyarsan, onda üzünü görmə.

Eyvaz baba uşaqlara bir xeyli toxum, bir neçə də şitil verdi. Toxumları kiçik kağız torbalara tökdü. Cibindən bir ucuna nazik ciyə bağlanmış qələm çıxartdı. Torbaların üstünə hər kisənin adını yazdı. Sonra dedi:

— Asya bacıya deyərsiz, sizə kömək elər. Hər toxumun əkilmə qaydası var.

Tərlan soruşdu

— Asya bacı kimdir, yoxsa Asya xalanı deyirsiz?

— Hə, elə onu deyirəm. Asya bacı yaxşı təsərrüfatçıdır. Bu il onu briqadir qoyublar. Qoçaq arvaddır.

Uşaqlar qayıdanda yolda Tərlan Altaya dedi:

— Sənin nə yaxşı baban var, kaş mənim də bir elə babam olaydı!

# Y A R I Ş

Ertəsi gün istirahət günü idi. Tərlan səhər həyətə çıxdı. Gecə yağış yağdığından həyətdə və küçədə bütün çala-çuxurlar su ilə dolmuşdu, elə bil yer köhnə paltar kimi yırtılıb deşilmişdi. Bu yırtıq-deşiklərdə də mavi göy və çiçəklənmiş ağaclar əks olunmuşdu. Altayın ekiz bacı-qardaşı Gülüşlə Sülü doqqazın qabağında dayanmışdı. Uşaqlar əllərindəki uzun ağacla suyu biri-birlərinin üzünə sıçradırdılar. Çirkin su üst-başlarını buladıqca onlar bərkdən gülüşür, biri-birlərini daha çox islatmağa çalışırdılar. Tərlan da onlara baxıb gülümsünürdü. Bu vaxt birdən Altaygilin həyət qapısı cırıldadı. Altayın böyük bacısı Məryəm doqqaza çıxdı. O, uşaqları görən kimi çığırdı:

— Ana, ay ana, bir gör Gülüşlə Sülü nə oyun çıxarırlar. Ay aman, üst-başlarını bunlar nə günə salıblar! — deyə uşaqların üstünə cumdu və hər ikisinin qolundan yapışıb apardı.

Asya xala tövlədə inək sağırdı. Qaşqanın qabaq ayaqlarına bağlanmış təpəl buzov süddən islanmış burnunu qabağa uzadaraq inəyin əmcəyinə sarı dartınırdı. Qaşqanın məmələrindən süd köpüklənə- köpüklənə sərnicə axırdı. Sərnic dolanda Asya xala buzovu inəyin altına saldı. Buzov gah bu əmcəyi, gah da o biri əmcəyi ağzına salıb marçıltı ilə sorurdu. Hərdən burnu ilə inəyin yelininə bir dürtmə vururdu. Qaşqa inəkdə başını döndərib, buzova qıyqacı baxır, inciyəndə quyruğunu bulayır, dal ayaqlarını qeyzlə yerə çırpırdı.

Tərlan Asya xalaya dedi:

—Asya xala, dünən Altayın babasının yanına getmişdik. Bizə xeyli toxum verdi. Dedi ki, düzəldin, sizə istədiyiniz qədər şitil də verərəm. Altayla sözü o yerə qoymuşuq ki, həyətimizdə bağça salaq,

Asya xala gülümsündü:

— Siz mənim ağıllı balalarımsız, əlbəttə gərək əkək. Elə günü bu gün başlayaq, yoxsa sonra başımız işə-gücə qarışar, vaxt tapmarıq.



— Nə vaxtdan deyirsən, Asya xala?

— Qoy inəyi rahlayım, südü qaynadım, başlayaq.

Tərlan Altaygilin həyətinə açılan çəpərə sarı qaçdı. Taxtanı yana çəkdi. Altayın atası arxası çəpərə durmuşdu. O, çəpərin dibini basmış kəndalaşı, gicitkəni dəryazla kəsib tökür, Altay da bir yandan yaba ilə yığıb həyətin o başında bir yanı üstə əyilmiş talvarın yanındakı xəndəyə tökürdü.



Bayaq Altayın böyük bacısı Məryəmin küçədən tutub apardığı Gülüş isə həyətin ortasındakı kötüyün üstə oturub baxır, arabir də burnunu çəkir, yanaqlarına axıb tökülən göz yaşlarını yumruğu ilə silirdi. Altaygilin qızılı buzovu arxadan qızın ətəyini ağzına salıb çeynəyirdi.

Altayın atası dəryazı hərlədikcə qucaq-qucaq ot yanı üstə tökülürdü. O, çəpərə çatanda çiyni üstdən dönüb baxdı. Tərlanı gördü:

— Hə, yoxsa köməyə gəlmisən? — deyə soruşdu.

Altay əlindəki yabayla otu yığa-yığa dedi:

— Ata, biz Tərlanla yarışmaq istəyirik, söz vermişik ki, hərə öz həyətində yaxşı bir bağça düzəltsin.

— Yaxşı işdir, — dedi, — indi görək kim-kimi ötəcək. — Sonra dəryazı bir tərəfə atıb ətrafına boylandı. Kötüyün üstündə oturub mısmırığını sallamış Gülüşə dedi:

— Qalx, o beli bəri gətir, arxın gözünü açım.

Gülüş ayağa qalxmaq istəyəndə büdrədi. Buzovu itələyib ətəyini onun ağzından çıxartdı. O, belin dəstəyindən tutub sürüyə-sürüyə gətirdi.

Atası məzəmmətlə dedi:

— Yekə qızsan, əlindən dəcəllikdən başqa bir iş gəlmir. Bir sürü uşaqsız. Həyət-bacanı ot-pencər basıb. Talvar böyrü üstə əyilib, arxın gözü tutulub. Utanım yerinizə! Asya bacı tək arvaddır, əlindən tutanı da yoxdur. Bir gedin həyətinə baxın, görün necə səliqə var.

.. Elə bu vaxt Asya xala eyvana çıxıb çağırdı:

— Bala, Tərlan, haradasan? Gün qızır, gəl işimizi görək.

Tərlan tələsik evlərinə qaçdı.

Asya xala eyvanın məhəccərinə düzdüyü xırda nəlbəkilərdəki tənzif kisəcikləri Tərlana göstərib dedi:

— Bir gör toxumlarımız necə çırtlayıb.

Tərlanla Asya xala suya qoyulmuş tənzif kisəcikləri açıb toxumları yoxladılar. İri, ağ yelpənək toxumları şişmiş, baş tərəfləri də çırtlayıb aralanmışdı. Noxud, boranı, lobya toxumları da pəncərəyə qoyulmuş nəlbəkilərin içində bahar günəşinin şüalarını doyunca içərək dirçəlmişdilər. Asya xala bir neçə kiçik düyünçə də gətirdi. Bu düyünçələrdə boz toxumlar vardı. Asya xala onları bircə-bircə yoxlayır, bəzilərini dişi ilə əzir və deyirdi:

— Bax, bu keşniş toxumudur, bu isə şüyüddür, bu ətirşahdır, bu da yerkökü...

Tərlan büzüşmüş toxumlara mat-mat baxıb fikirləşirdi: „Görəsən Asya xala bunları necə ayırd edir. Axı toxumların hamısı bir-birinə oxşayır". Tərlan boz rəngdə olan yerkökü toxumunu ovcuna tökdü: „Yəni bu kiçik qırışmış toxumlardan sarı, sulu, şirin yerkökü əmələ gələcək?" Tərlan

düyünçələri bir-bir açıb baxır, təzədən səliqə ilə büküb bir tərəfə düzürdü. Asya xala toxumları rahladıqdan sonra dedi:

— Oğul, indi mən toxumları yığım sən də beli götür, həyətə düş. Gün qızmamış işə başlayaq.

Tərlan düyünçədəki toxumlara işarə edərək soruşdu:

— Asya xala, bəs bunları islatmadan əkəcəyik?





Asya xala dedi˙

— Bala, bütün toxumları islatmaq olmaz. O boz toxumları görürsən, bunlar yerkökü toxumudur, gərək onu torpağa qarışdırıb əkəsən.

Həyətdə hasar boyu düzülmüş albalı ağaclarının arasında səliqə ilə bir neçə lək qazılmışdı. Üzü qaysaqlanmış torpağın altı yumşaqdı, addım atdıqca torpağın qaysaqı qırılır, ayağın topuğa kimi içəri girirdi. Asya xala beli Tərlandan alıb dedi:

— Bu ləkləri keçən istirahət günü atanla birlikdə düzəltmişik. Yağış yağdığından torpağın üstünü qaysaq tutub. Bu saat ləklərin içini bir balaca yumşaldaq, sonra da toxumlarımızı basdıraq.

— Asya xala ayağını belin təpcəyinə basdıqca, qaysaq çatlayır, qara,nəm torpaq ovxalanıb tökülürdü. Tərlan da öz kiçik belini götürüb Asya xalaya kömək etməyə başladı. Bir azdan Tərlanın anası Rəna da həyətə düşdü. Xeyli tamaşa edib həvəsləndi. Pəyədən bir bel çıxartdı...

Asya xala Rəna ilə Tərlana baxıb gülümsünür, deyirdi:

— Ay aman, mənim nə yaxşı köməkçilərim var..

Tərlan arabir əlini qara torpağın içinə soxurdu. Torpağın altı yumşaq və nəmiş idi.

Birdən Tərlanın alnına bir şey toxundu. Təlan onu əlilə yerə çırpdı. Uzun, boz buynuzları olan mayis böcəyi arxası üstə yerə düşdü. Asya xala belin ucu ilə böcəyi əzərək dedi:

— Çox zərərli böcəkdir, onun sürfələri torpağın içərisində bitkilərin kökünü yeyib zədələyir! Harada görsən əz, qoy andırın kökü kəsilsin.



Bir az sonra Tərlan belin təpcəyini basanda topaqdan iri bir soxulcan çıxdı. Tərlan əyilib ona tamaşa etməyə başladı. Soxulcan rezin kimi yığılıb açılır, qıvrıla-qıvrıla kor başını torpağın altına soxmağa çalışırdı. Tərlan əlindəki bel ilə onu iki böldü. Asya xala bir Tərlana, bir də iki bölünmüş soxulcana baxıb başını buladı.

Tərlan dedi:

— Asya xala, o toxumları yemək istəyirdi.

— Toxum onun nəyinə gərəkdir, oğul. Soxulcanı öldürməzlər. Onun xeyri çoxdur, torpağın altın yumşaldır.

Ləklər hazır oldu. Tərlangil toxumları cərgəylə basdırdılar. Axırda şitillər üçün kiçik çalalar düzəltdilər. Asya xala dedi:

— İndi gün qızır, şitilləri gərək axşam sərinində basdıraq. — Sonra əlavə etdi: — Tərlan, bu gündən sənin vəzifən artır, gərək ləklərə yaxşı qulluq edəsən, yoxsa əməyimiz zay olar.

Tərlan hər gün səhər və axşam ləkləri sulayıdı. Asya xalanın köməyilə alağını vurur, şitillərin dibini yumşaldırdı.



Turp toxumları əkilmiş ləklərdən cüt cüt yarpaqlar torpağı yarıb günəşə sarı boylananda o biri ləklərdə hələ heç bir cücərti yoxdu. Sonra bu qoşa yarpaqların arasından xovlu kiçik yarpaqlar çıxdı. Bu vaxt Tərlan ən iri çücərtini tutub dartdı. Bitkinin kökündə istiot böyüklükdə çəhrayı tumurcuqlar əmələ gəlmişdi. İki üç gün sonra o biri ləklərdə də çıxışlar göründü. Noxud, lobya, bibər, yelpənək toxumları da cücərdi.

Təkcə yerkökü ləki boşdu. Onu xırdaca alaq otları basmışdı. Tərlan fikirləşdi ki, „yəqin bu alaq otları kökün cücərməsinə mane olur. Asya xala işdən qayıdana kimi gərək onun alağını yonum". O, yerə əyilib tirim-tirim əsən otları tutub yonmağa başladı. Elə bu vaxt bir səs eşitdn.

— Ə, Tərlan, kökləri niyə çıxarırsan?

Tərlan dönüb baxdı Altayın bacısı Məryəm barının üstünə əyilmiş tut ağacının başında oturub Tərlanın ləklərinə tamaşa edirdi. O, yarpaqları aralayıb başını çıxartdı və əlini ləklərə sarı uzadıb təkrar soruşdu:

— Kökləri niyə yonursan? — O, Tərlanın heyrətlə baxdığını görüb güldü: — Yoxsa bunları alaq bilmisən? — Məryəm cavab gözləmədən əlavə etdi: — Kök təzə cücərəndə belə olur, iki-üç gündən sonra isə buruq sırğacıqlara çevrilir. Hələ gəl bizim bostanımıza tamaşa elə. Ləklərimiz elə sizinki kimidir, turpumuz da çıxıb, boranılar isə lap iriləşib.

— Pomidorlarınız necə, şitillər düymə bağlayıbmı? Məryəm başını yırğaladı:

— Bəs necə, atam deyir bu gün-sabah yetişərlər, yelpənəklərimiz də güldən düşüb. O tərəfdəki ləkdə bax bu boyda bir yelpənək var, — deyə Məryəm çeçələ barmağını göstərdi.

Tərlan Altaygilin həyətinə keçdi. Həyət tamam dəyişilmişdi. Sırayla düzülmüş ləklərdə birətə çıxışlar alınmışdı. Altay qonşu həyətə baxanda hasarın dirəklərini möhkəm mıxlamışdı ki, kimsə çəpərdən keçməsin. Ona görə də Tərlan indi Altaygilə küçə tərəfdən dolanbac yolla gəlməli olurdu.

Altay evdə yoxdu. Məryəm dedi ki, anamla birlikdə məktəbə gedib. Məryəmin dediyinə görə Altay əla qiymətlə üçüncü sinfə keçmişdi.

Tərlan Məryəmin göstərdiyi ləkləri bircə-bircə gözdən keçirtdi. Axırıncı ləkə çatanda durdu. Nə isə burda əkilən bitki Tərlana qəribə göründü. O, ləkin yanında çöməltmə oturdu:

— Deyəsən bundan bizim yoxdur, — dedi.

Məryəm iri armud ağacının altında əkilmiş tünd yaşıl yarpaqları olan bitkiyə işarə edib dedi:

— Düz deyirsən. Siz çiyələk əkməmisiniz. Babam dedi ki, „bizim yerlərdə çiyələk bitmir, kölgəlik yerdə əkin, bəlkə əmələ gəldi". İndi biz də gecə-gündüz bu qonağa qulluq edirik. Görürsən nə yaxşı göyərib?

Altaygil eyvanın səkisi altında çiçək əkmişdilər. Çiçəklərin arasında günəbaxan da vardı. Günəbaxanın dimdik qalxmış yoğun saplağı məxmər kimi xovlu idi. Saplağın başında sarı çiçək vardı, çiçəyin ortasındakı iri düyməyə bir neçə arı qonmuşdu. Tərlan dizə kimi qalxan günəbaxana baxıb həsədlə dedi:

—Hayıf, biz günəbaxan əkməmişik.

Məryəm boyun oldu ki, sabah səhər tezdən şitilliyə gedib babasından ona iki-üç günəbaxan şitili alsın.

## KƏKLİK ÇARDAXLIYA QAYITDI

.. İyun girmişdi. Tərlan hər axşam atası ilə birlikdə ləkləri sulayır, alağını çəkir, yerə yatmış pomidor kollarını torpağa sancılmış çubuqlara bənd edirdi. Lobya, noxud kolları isə öz uzun sırğacıqları ilə böyürlərindəki çubuqlara sarınır, yuxarı dırmaşırdı.

Tərlanın atası işdən gələn kimi soyunub iri vedrələri əlinə alanda, Tərlan da tənəkə çayniki götürüb həyətə düşür, ata-bala ləkləri sulayırdılar. Arabir atası Tərlana deyirdi:

—Suçu olmaq asan şey deyil, bu, kişi işidir. Ona görə də həyət-bacanı biz gərək özümüz sulayaq.

İstidən yarpaqları soluxmuş şitillər sulandıqca elə bil dirçəlirdi. Torpaq acgözlüklə suyu çanına çəkir, həyətə xoş sərinlik yayılırdı.

Tərlan bütün günü həyət-bacada dolanırdı. Kürəyi, çiyinləri dağ günəşinin təsirindən mis rənginə çalırdı. Burnunun və yanaqlarının dərisi küldə bişirilmiş kartof kimi partlamışdı. O, hər səhər günəşlə birlikdə yatağından qalxar, tələsik həyətə düşərdi. Şehli otların üstünə yalın ayaqlarını asdıqca canına xoş bir üşütmə yayılardı. Ağacların yarpaqlarından çiyninə, boynuna, üzünə buz kimi soyuq su çilənirdi.

Bir dəfə Tərlan səhər ertə gilənar ağaclarının arasında gəzişirdi. Çox qəribədir. İki-üç gün əvvəl yaşıl yarpaqlardan seçilməyən, göy noxuda oxşayan gilənar bu səhər rəngini dəyişmişdi. Tərlan ızarmış gilənarlardan birini qoparıb ağzına qoydu. Gilənarın turşuluğundan dişləri qamaşdı, dili yığıldı. Tərlan tez tüpürdü. Demə Asya xala da gilənar ağaclarının böyründə durubmuş. O, qırmızıya çalan gilənarları əli ilə yoxlayıb dedi:

— Bir on-on beş günə mürəbbəlik olar. Ağrın alım, indi hələ turşdur, yeməli deyil. Yetişəndə könlün nə qədər istəyir yeyərsən.

Asya xalanın əlində səbət vardı. O, ləklərin qabağında oturub dedi:

— Tərlan, gəl kömək elə. Yelpənəklərimiz yetişib, bax göy soğanı, keşnişi, şüyüdü, bibəri düzmək olar; — O, atlaz kimi parıldayan enli yarpaqları araladı. Kahıların şehdən tərləmiş ağ incə köynəkləri göründü. Sübh günəşinin bənövşəyi şüaları altında kahılar sədəf kimi işıldadı. Bəh-bəh, gör kahılarımız nə yeməlidir, — deyə Asya xala ağzını marçıldatdı. — İndi sənə iskəncəbi qayıraram. Kahı ilə yeyərsən.

Tərlanın başı işə elə qarışmışdı ki, doqqazın döyülməsini, köpəyin hürməsini belə eşitməmişdi. Odur ki, anası Tərlanı səsləyəndə bildi ki, səhər naharına çağırır, Rəna başını pəncərədən eşiyə uzadıb dedi:

—Tərlan, eşitmirsən, axı səni çağırıram, qonağın gəlib. Bir bax gör tanıyırsanmı?

Tərlan başını qaldırdı. Pəncərənin qabağında anasının böyründə dayanmış, utancaq-utancaq gülüsəyən Kəkliyi o saat tanıdı.

Kəklik yay tətilinə buraxıldıqdan sonra nənəsi ilə birlikdə Çardaxlıya gəlmişdi. İndi onlar daha əvvəlki kimi qonşuluqda olmurdular. Təzə məktəbin böyründə tikilmiş yaşayış binasının üçüncü mərtəbəsində Kəklikgilə iki göz otaqdan ibarət mənzil vermişdilər. Kəklik sinəsinə tökülən hörüklərinin ucunu toxuya-toxuya dedi:



Mən bu il Çardaxlıda oxuyacağam. Nənəm də bizimlə olacaq. Yəqin sən də həmin məktəbdə oxuyacaqsan, eləmi?

Tərlan dəhlizdə mıxçadan asılmış təzə portfelini açıb içərisindən kitabları Kəkliyə göstərdi. Əlifba kitabının axırıncı səhifələrini vərəqləyərək dedi:

—Burda təzə şəhərimiz Çardaxlı haqqında da yazılıb, görürsən? — O, gözəl rənglərlə çəkilmiş şəkli Kəkliyə göstərdi —Bax, bu Çardaxlı dənizidir, bu isə elektrik stansiyasıdır.

Tərlan Kəkliklə baş-başa verib baxırdı. Elə bil şəkli ilk dəfə idi ki, görürdü.

—Hayıf burada yer çatmayıb, yoxsa məktəbimizin şəkli də olardı. Başqa yerlərdə yaşayan uşaqlar baxıb deyərdilər: „Kaş, biz də qabağı sütunlu məktəbdə oxuyaydıq!" Elə deyilmi, Kəklik?



Bu ara Asya xala siniyə yığılmış bir neçə baş kahı, güllü kasada iskəncəbi gətirdi. Onun iskəncəbi dediyi çəhrayı şərbətdən qızılgül və reyhan iyi gəlirdi.

Uşaqlar sininin dövrəsində əylənşib sədəf kimi parıldayan kahı yarpaqlarını qırıb şirin iskəncəbiyə batırır və ləzzətlə yeyirdilər. Bir az sonar Altay da gəlib onlara qoşuldu. Altayla Tərlan becərdikləri bostanı, bağçanı Kəkliyə göstərdilər.

Kəklik kolların, ağacların, ləklərin başına dolanır, biri-birinə macal vermədən danışan uşaqları dinləyirdi. Başını dik tutub günəşə baxan sarı günəbaxanlar Kəkliyin çox xoşuna gəldi. O dedi:

—Hayıf ki, həyətimiz yoxdur, yoxsa mən də baxça düzəldərdim.

Günəbaxanın üzərindəki məxmər xov son günlər qaba tüklərə çevrilmişdi. Kəklik boylanıb sarı ləçəklərlə əhatə olunmuş xanalara baxdı. Xana1arın üstündə iki qırmızı xanımböçəyi gəzirdi.

— Ay aman! — deyə Kəklik çığırdı,—cücülər gör tumları necə yeyirlər!

Altay gülümsünərək dedi:—Bunlar xanımböçəyidir. Bitkinin üzərində gəzib zərərli cücülərin sürfəsini yeyir. Xanımböcəyi xeyirli cücüdür. Ona dəyməzlər.

Tərlan isə dedi:

— Məryəm şitillikdən gətirəndə günəbaxanlar mənim dizimdəndi, sonra uzanıb ciynimdən oldular. İndi isə baxın necə tez boy atıblar, mən onların çiynindənəm.

# ÇAY KƏNARINDA

Təzə şəhərin baharı kimi yayı da çox gözəldi. Kəklik Çardaxlıya köçəndən sonra Tərlangilin dəstəsi daha da böyümüşdü. Onlar hər gün səhər yeməyindən sonra yığışıb gah şitilliyə gedir, gah Eyvaz babaya qoşulub yaxındakı meşəyə çıxır, hava bürkü olanda da çaya çimməyə gedirdilər. Çardaxlının qolu sayılan adsız çayın suyu yayın isti günlərində quruyardı. Ancaq bu il yağarlıq olduğundan su boldu. Həm də Çardaxlı çayının yatağı dəyişiləndən sonra Çardaxlı dənizindən çəkilən kanalların bir neçəsi işə düşdüyündən adsız çay öz təsərrüfat əhəmiyyətini itirmişdi. Hər il yatağını dəyişən, yerli camaatın „Avara çay" adlandırdığı adsız çaydan bu il təsərrüfatda az istifadə olunurdu. Buna görə də çayın suyu boldu. Adsız çay həm meşəyə və həm də Eyvaz babanın təsərrüfatına yaxın idi. Uşaqlar qumluq sahildə əylənib, doyunca çimdikdən sonra Eyvaz babanın yanına gedərdilər...

Yenə hava yaman bürkü idi. Günortaya yaxın uşaqlar yığışıb çaya getdilər. Yolda Altayın qanı qaraldı. Elə bağçılıq təsərrüfatına təzəcə yetişmişdilər ki, Sülü ilə Gülüş qaça-qaça gəlib dəstəyə qoşuldu. Altayın acıqlanıb onları geri qaytaracağından qorxan Sülü yetişər-yetişməz dedi:

— Altay, anam dedi ki, bizi də aparasan.

Gülüş də qardaşına macal vermədən dilləndi:

— Dedi ki, evdə qalıb dəcəllik edərsiz, gedin Altayla gəzin.

Altay hirslənsə də dinə bilmədi. Kəklik də Gülüş ilə Sülünün əlindən yapışıb qabağa düşdü. Sülünün əlində uzun bir qarğı vardı. Qarğının başına ucu əyri mıxa bağlı yoğun sap sarınmışdı, O, qarğını Kəkliyə göstərib öyünürdü.

— Kəklik bacı, bax, özüm düzəltmişəm ey, çayda balıq tutacağam.

Hava bürkü olsa da, köpüklənə-köpüklənə axan çayın kənarı sərindi. Elə bil dalğalar dağların sərin mehini qoynuna alıb gətirirdi. Altay çaya çatan kimi köynəyini çıxarıb suya atıldı. Üz-gözünü yuyub sərinləndikdən sonra

baş vurub suyun dibindən qara torpaq çıxartdı. Torpağı sinəsinə, çiyinlərinə sürtərək „oxay, nə sərindir" dedi.

Sülü də tumanlı-köynəkli suya cumdu.

İki həftə əvvəlki yağışın seli dağlardan iri daşlar axıdıb gətirmişdi. Bir-iki addım sahildən aralı düşmüş daşın üstündən aşan dalğalar qüvvətlə ətrafa sıçrayırdı. Sülü daşa çatanda ayaq üstə dura bilmədi, səndələyib əllərini qaldırdı və yanı üstə suyun içinə yıxıldı. Altay qardaşının qolundan yapışıb qaldırdı. Sülünü danlaya-danlaya qumluq sahilə çıxartdılar. Köynəyini, tumanını da soyundurub qurumaq üçün kolların üstə sərdilər. İndi Sülü büzüşüb kənarda oturmuşdu. Utandığından yerindən tərpənə bilmirdi. Altay çayın sağ sahilini basmış qamışlıqdan bir qamış kəsdi. Qamışın bir uçunu səliqə ilə yonaraq dedi: —İndi sizə gör nə göstərəcəyəm. Onun xoşladığı bir oyun vardı: ağzına bir qamış alıb suya batar, çayın dibi ilə üzü aşağı-üzü yuxarı üzərdi. İndi də uşaqların gözü qabağında o, suyun içində yoxa çıxdı. Ancaq qarğının üzü aşağıüzü yuxarı gedib qayıtmasından bilirdin ki, Altay suyun altındadır. Sahildə durub bu qəribə üzgüçüyə tamaşa edən uşaqlara, keçən hər dəqiqə saatlar qədər uzun göründü. Axırda Kəklik səbir edə bilməyib dilləndi:

— Ə, Altay, bəsdir, tez ol sudan çıx. Gülüş də ürəklənib ara vermədən: —Bu saat çıx, bu saat çıx. Çıxmasan anama deyəcəyəm,— deyə çığırmağa başladı.

Altay rəngi göyərmiş halda sahilə çıxdı. Uşaqlar çaya əyilmiş salxım söyüdün kölgəsində yerə uzandılar. Uzaqdan baxanda adama elə gəlirdi ki, yaşıl çəməndə çay kənarında tənha söyüd su içmək üçün başını aşağı əymişdir. İndi də meh vurduqca onun şax yarpaqları biri-birinə toxunub səslənirdi. Çayın üstü ilə ağ buludlar üzürdü; onlar gah çiçək açmış alma ağaclarını, gah da şəffaf sularda üzən sonaları xatırladırdı. Çayın o tayında bağçılıq təsərrüfatına gedib çıxan çəmənlik yenə də gömgöydü. Günün işığında otlar bərq vururdu. Çəmənliyin otu iki dəfə çalınmışdı, kolxozun

mal-qarası da ara-sıra burda otlayırdı. Ancaq yağışdan sonra çəməndə yenə dizə kimi ot vardı.



Çöldən bol, sarı buğla çörəyinin ətri, bir də ifadəsi mümkün olmayan şirin, xoş bir qoxu gəlirdi. Qabaqdakı təpənin arxasından Sarı dağın başı görünürdü. İki dağın arası birləşdirildiyindən Çardaxlı çayı artıq Sarı dağı qılınc kimi yarıya bölüb keçə bilmirdi. Burada onu kəməndə salmışdılar; Çardaxlı indi təzə yatağı ilə axırdı. Çardaxlı çayının yeni yatağı— bir kilometr uzunluğu, qırx metr eni və otuz metr dərinliyi olan nəhəng bir dərədən keçirdi. Bu dərənin dibində hər biri üç mərtəbə hündürlükdə dörd beton boru qoyulmuşdu ki, Çardaxlı da həmin borulardan axıb turbinləri hərəkətə gətirir, elektrik enerjisinə çevrilirdi.

Bürkü olduğundan Sarı dağ bənövşəyi hava dalğalarının təsirindən qırmızı rəngə çalırdı. Altay dağın başını göstərib dedi:

— Tərlan, yadındamı siz Çardaxlıya köçəndə Sarı dağın başı hələ haça idi.

Uzaqdan, təpələrin arxasından adama elə gəlirdi ki, bu iki dağdır.

Tərlanla Kəklik əllərini gözlərinin üstə tutub dağa sarı baxdılar.

Tərlan: — Elədir, — dedi, —qışda atanın yanına getdiyimiz vaxt orada torpaqsoran maşın, işləyirdi.



Keçdiyimiz dərəni indi su basıb. Stansiya hazır olandan sonra şəhərimiz çox gözəl olacaq.

Sülünün paltarı hələ qurumadığınlan ayağa dura bilmirdi. O, hərdən ayağı ilə çayın batağından bir parça qoparıb uşaqların üstünə atırdı; ən çox da hədəfi Gülüş olurdu. Kəklik Sülüyə hey acıqlanır, deyinə-deyinə qızı çaya salıb, üst-başını təmizləyirdi. Axırda lap onun əlindən təngə gəldilər. Altay qardaşının qulağından yapışıb dedi:

— Sən nə oyun çıxarırsan? Camaatı ələ salmısan, nədir? Bu saat qulağından tutub ataram çaya.

Sülü sımsığını sallayıb dedi:

— Paltarlarımı verin, bir də etməyim.

Gülüş bu ara bir dəstə gicitkən qopartdı. Gicitkənləri əlini dalamasın deyə ləçəyi ilə tutdu. Sonra da girəvəyə salaraq Sülüyə yanaşıb gicitkəni onun çiyinlərinə, yalın baldırlarına çırpmağa başlalı. Sülü əvvəl bunu cacıq bildiyindən əhəmiyyət vermədi. Sonra əti köpəşib səpdi, bədəni dalandı. Lüt olduğundan unudub Gülüşün ardınca qaçdı. Gülüş Kəkliyin arxasında gizləndi. Sülünün bədəni qıpqırmızı olmuşdu. O, gicitkən dalayan yerləri sürtə-sürtə atılıb düşür, uşaqlar isə gülməkdən uğunub gedirdilər. Altay gülə-gülə deyirdi:

— Sizə kim dedi ki, böyüklərin dalınca gəzəsiniz. Bir də dalımca gələrsiniz?

Axırda Sülü qumluq üstə uzanıb o tərəf, bu tərəfə diyirlənməyə başladı. Altay qardaşına çığırdı:



— Ayə, Sülü, tez özünü suya vur, suya vur gicişməsi kəsilsin.

Sülü bunu eşidən kimi suya cumdu. Arabir o, sudan başını çıxarıb Gülüşü hədələyir —yaxşı, yadında saxla,— deyirdi. — Bunun hayıfını səndə qoymaram.

Çox keçmədi ki, onun bədəninin göynəməsi kəsildi. Lakin sudan tez çıxmadı, ləpədöyəndə oturub deyinir, gözaltı uşaqlara baxırdı. Altay onun paltarını kolun üstündən alıb dedi:

— Di bəsdir, sudan çıx, al əyninə gey!

Uşaqlar geyinib getməyə hazırdaşırdılar ki, Gülüş çığırdı:

— Odur ey, babam gedir.

Hamı dönüb Gülüşün göstərdiyi səmtə baxdı. Çayın meşəyə yaxın daralmış yerində o taydan-bu taya uzadılmış dirəklərin üstündəki asma körpüdən bir nəfər keçirdi. Gülüş uşaqları gözləmədən çayın qırağı ilə körpüyə sarı cumdu. O gedə-gedə: — Baba, ay baba! — deyə çığırırdı.

Eyvaz baba uşaqları görüb dayandı. Əlini gözünün üstə qoyub baxdı. Uşaqlar da Gülüşün ardınca getdilər. Gülüş səhv etməmişdi. Eyvaz baba əlində tutduğu güllü xurcunu çiyninə atıb soruşdu:

—Yenə belə dəstə ilə haradan gəlirsiniz?

— Çimməkdən... Baba, bəs sən hara gedirsən? — deyə Altay soruşdu.

— Mən də meşəyə gedirəm.

Eyvaz babanın meşəyə nə üçün getdiyini Çardaxlıda bilməyən adam tapılmazdı.

Çardaxlı çayı Qanlı göllə birləşdirilib qurtardıqdan sonra Çətin dərədəki meşənin bir hissəsini su basacaqdı. Eyvaz baba bu yerləri qarış-qarış gəzib gözünə dəyən ağacları, nadir bitkiləri çıxartdırıb bağçılıq təsərrüfatına gətizdirirdi. İndi şəhərdə səkilərin kənarında bitən ağacların hamısını Eyvaz baba əkdirmişdi. Meşədə əsrlərlə biri-birinə sığınıb dayanan, biri-birini soyuqdan, şaxtadan, küləkdən, günün şahmar istisindən qoruyan ağacları doğma yatağından ayıranda quruyub tələf olurdular. Eyvaz baba isə təslim olmaq istəmirdi. Təzə torpaqda əkilmiş ağamlardan biri tutmayanda bağbanları çağırıb danlayırdı;

— Axı nəyə görə böyürdə əkdiyimiz ağac tutub, bu birisi quruyub? Görünür yerini yaxşı rahlamamısınız. Vaxtında gübrə, su verməmisiniz. Ağac körpə uşaq kimi bir şeydir. Baxımsız ki, qaldı tələf olur.

Eyvaz babanın qayğısı ilə şəhər ətrafındakı bataqlıqlarda 60 min evkalipt, tunq ağacı əkilmişdi. Eyvaz baba bu barədə söhbət düşəndə deyirdi:

— Bu ağacların qiyməti yoxdur; həm təsərrüfata xeyir verir, həm də axmazları qurudub ağcaqanadın kökünü kəsir.

İndi də Eyvaz baba deyəndə ki, „meşəyə gedirəm" uşaqlar da həvəslə ona qoşuldular...

## ÇARDAXLIDAN GÖZƏL YER YOXDUR!

... Meşə sakit və sərindi Kollarda xanıməli və mürvər qızarırdı. Bataqlıq mərsininin şəffaf salxımları şüşə kimi parıldayırdı. Düdükotu bənövşəyi rəngə çalırdı. Ağacların arasını tikanlı kollar və ardıc pöhrələri basmışdı. Külək vurduqca cır püstə, çinar, fısdıq, bədmüşk ağaclarının yarpaqları pıçıldaşırdı. Qaraağacın və meşə gözəli palıdın şax yarpaqları isə zınqrov kimi səslənirdi. Uşaqlar gecəndə birdən böyürlərindəki bir kol elə bil diksinib titrəyir, üstünü hörümçək toru və kif basmış yarpaqların altından xışıltı gəlirdi, arabir də gözə görünməyən bir quşun qanadlarının pırıltısı eşidilirdi.

Kəklik, Sülü və Gülüşlə arxaca gəlirdi. Onlar gözlərinə dəyən çiçəkləri dərib ətəklərinə tökür, sonra da çələng düzəldib tac kimi başlarına qoyurdular. Çiçək çoxdu, kağız kimi ağ ləçəkləri olan, ortası sarı düymə bağlamış çobanyastığı, tünd qırmızı yonca çiçəyi, zərif zəng çiçəyi, sarı düyün çiçəyi, çətrəbənzər zirə çiçəyi, aynaququ tük kimi nazik zərif yarpaqları olan qırpıntı otunu dərib ətəyinə yığan Gülüş deyirdi:

— Kəklik bacı, bax, bir gör necə göyçək çiçəklər tapmışam.

Kəklik gedə-gedə gözəl bir çələng toxudu. Çələngin içərisində çoxlu yonca çiçəyi olduğundan çöl arıları Gülüşün başına dolanmağa başladı Əvvəl

biri uçub gəldi, sonra ikincisi, üçüncüsünə də elə bil xəbər verdilər. Axırda Gülüş təngə gəlib çələngi başından çıxartdı. Üzünü arılara tutub dedi:

— Bu nədir? Siz nə acgöz şeysiz, nə çoxdur meşədə ot, çiçək, elə gərək mənim çiçəklərimin üstə qonasınız?

Altay kolların arasından baldırğan tapdı. O, saldırğanın bəndəmini parçalayıb uşaqlara payladı. Kəklik qarğı kimi şax bəndəmin o üz-bu üzünə baxıb dedi:

— Bu nədir belə? Birdən zəhərli olar ha!

Eyvaz baba gülümsündu:

— Yox, qızım, — dedi, — bu çox xeyirli şeydir. Qabığını soyub içini çeynəyin, şirin-turşməzə dadır. Baldırğan xalis vitamindir. Buna ayıəppəyi də deyirlər. Çünki ayı baldırğanı çox xoşlayır.

Tərlan baldırğanın üstundəki sərt qabığı soyub onun ətli gövdəsini ağzına qoydu, dişlərinin altında şaqqıltı ilə xırdalanan şirin-turşməzə baldırğan onun yaman xoşuna gəldi. Sülü şingilənin tumlarını təmizləyib saqqız kimi çeynəməyə başladı. Şingilə yumşalandan sonra onu üfürüb partlatdı. Bu vaxt Tərlan diksindi. Sülünün ağzına baxıb mat-mat „o nədir elə?" deyə soruşdu.

Sülü də şingiləni təkrar-təkrar ağzına salıb partlatdı. Şingilə qovuq kimi şişib partlayan zaman Tərlan əllərini bir-birinə vurub deyirdi:

— Ayə, bu nə qəribə şeydir!

Altay da pencəri çox sevərdi həmişə də bir şey tapıb sorar, uşaqları da şirnikdirərdi.

Baharda çöllər yaşıllaşanda kənd uşaqları əllərinə torba götürüb pencər yığmağa gedərdilər. Altay Eyvaz babadan bu barədə çox şey öyrənmişdi. Ona görə də həmişə dəstəyə başçılıq edər, ən yaxşı qutabotu bitən yerləri uşaqlara göstərərdi. Uşaqlar da çoxlu gəlinbarmağı, cincilim, quşəppəyi, quzuqulağı, yığıb torbalarına basar, evə əlidolu qayıdardılar.

İndi də Altayın ağzı elə işdə idi. O, gah düdükotu qoparıb sorur, gah da diş qamaşdıran, adamın dilinin üstünü aparan dovşankələmi tapıb uşaqlara uzadırdı:—Əntiqə şeydir, yeyin, adama ləzzət verir.

Yayda pencər yeməkdən onun dilinin üstü şotur- şotur, çox gəzməkdən ayaqlarının altı çadar-çadar olardı. Altayı ancaq evdən çıxanda ayaqqabılı görərdilər, qayıdan vaxt həmişə çəkmələri çiynindən aşırılmış olardı

Eyvaz baba ilə uşaqlar bir dikdirin başına çıxdılar. Bundan o tərəfə meşə dağların döşüylə Çətindərəyə enirdi. Təpənin üstündə bir neçə meşə püstəsi bitmişdi. Eyvaz baba çomağını çır püstənin gövdəsinə döyəclədi, ağacın o qədər də yoğun olmayan gövdəsi mis kimi çingildədi, Eyvaz baba dedi:

— Bu ağacı ki, görürsüz, dəmirdən möhkəmdir, elə də ağırdır, suda batır. Nə qədər əlləşirik ki, şitillikdə heç olmazsa bir-iki ağac qoruyub saxlayaq, bitmir —O, əlini ağacın gövdəsinə döyəcləyərək əlavə etdi. — Zərər yoxdur, qoca, biz səndən də tərsik. Axır sənin də çəmini taparıq.

Tənənin başından Çardaxlının yatağı aydın görünürdü. Çayın ortasında bir neçə qaya baş-başa verib kiçik bir ada əmələ gətirmişdi. Dalğalar iri, sal daşlara toxunub köpüklənirdi. Eyvaz baba əlini gözünün üstə qoyub baxdığı sal qayaları göstərərək:—Odur ey, — dedi, — buradan elçi yolu gör necə aydın görünür!

Kəklik soruşdu:

— Baba, o qayalara niyə görə Elçi yolu deyirlər?

— Ona görə ki, lap uzaq keçmişdə bizim bu Çardaxlı şərq ölkələrindən qərb dövlətlərinə keçib gedən böyük karvan yolunun üstündə imiş. Bu yerlərdə Çardaxlının üstündən böyük bir körpü salınıbmış. Karvanlar da həmin körpüdən gəlib keçirmiş. İndi alimlər deyirlər ki, o sal qayalar dağılmış Elçi körpüsünün qalığıdır.

Günəşin şüaları pambıq kimi ağ buludların, yaşıl yarpaqların arasından nəvazişlə süzülürdü. Çox-çox hündürdə bir quş ağır-ağır süzürdü: o qırğı idimi, qartaldımı, yoxsa çalağandımı? — kim bilir... Uşaqlar başlarını yuxarı qaldırıb günəşdən qamaşan gözlərini qıyaraq onun uçuşunu seyr edirdilər

Təpənin üstündən Çardaxlı dənizinin Çətindərəyə çıxan hissəsi aydın görünürdü. O, dağ günəşinin şux, çəhrayı şüalarını ayna kmi əks etdirirdi. Həmişə qaşqabaqlı, tutqun görünən sarı dağın özü də bu gün nə isə başqa cür

gözə dəyirdi. Onun sinəsinə illərin, əsrlərin saldığı dərin qırışları monitorlar su şırnağı ilə yuyub hamarladıqdan sonra Sarı dağ elə bil cavanlaşmışdı. O, Çardaxlı dənizinə, Çardaxlı şəhərinin qırmızı, göy, boz tufdan tikilmiş gözəl evlərinə yaşıl xiyabanlarına baxıb gülümsünürdü.

Kəklik birdən əllərini açaraq təpənin lap başına çıxdı. Dərədən qalxan sərin külək üzünə vurdu. Ona elə gəldi ki, külək bu saat onu öz qanadlarına alıb həmin qartal kimi yuxarı qaldıracaq. Ürəyində nə isə məqsədi hələlik aydın olmayan bir arzu kükrədi: bu uçmağmı, yaratmağmı və ya yaşamaqmı arzusu idi, hələlik o bilmirdi. Eyvaz baba qıza baxıb gülümsünürdü. Ancaq dinmədi. Özlüyündə fikirləşdi: Mənim qanadı bərkiməmiş qartal balalarım! Uçmaq „istəyirsiniz, uçacaqsınız!.."

Kəklik dərindən ah çəkib qeyri-ixtiyari dedi:

— Nə gözəldir!

Gülüş ətrafa boylandı, sonra Kəkliyin ətəyini dartaraq:

— Kəklik bacı, gözəl olan nədir? — deyə soruşdu.

Uşaqlar gülüşdülər. Kəklik isə əlini yellədi

—Dağ, dərə, çəmən, meşə, bizim Çardaxlı, göydəki buludlar, hər şey... — dedi. — Adam baxmaqdan doymur.

Uşaqlar dördgözlə ətrafa baxdılar. Bu saat onlara elə gəlirdi ki, dünyada Çardaxlıdan gözəl yer yoxdur.

## ZƏVZƏK OTUNUN NƏĞMƏSİ

Rəna nigaran idi. Asya xala üç- dörd gün idi ki, evdən çıxmışdı. Rəna gündə bir neçə dəfə kolxoz idarəsinə zəng vurur, ancaq elə bir adam tapa bilmirdi ki, yerli yerində xəbər tutsun. Telefona gah hesablar, gah da xidmətçi arvad çıxıb deyirdi. „Sədri istəyirsiz? Bir saatdan zəng çalın, yerində olacaq".

Rəna bir saatdan zəng çalırdı, yenə eyni sözləri eşidirdi. Axırda o, tab gətirə bilmədi. Səhər ertə Tərlanın atasını yola salandan sonar dedi:

— Oğul, hazırlaş gedək, görək xalan harda qaldı.

Rəna yır-yığış etdm. Səhər ertə bişirdiyi təzə sarı buğdadan çəkilmiş yarma sıyığını kiçik qazançaya töküb dəsmala bağladı. Bir bağlı çay, bir az da şirni götürdü. İri güllü çətiri açıb başına tutdu. Həyət qapısından çıxanda barının üstündən Altayın anası Məryəm qışqırdı:

—Sabahın xeyir, a qonşu, xeyir ola, hara belə? Rəna həyət qapısının cəftəsini salıb barıya yaxın gəldi.

— Məryəm bacı, xoş günün olsun, xeyir olmamış nə olacaq,—dedi.—Qonşumu yoluxmağa gedirəm. Asya bacıdan nigaranam.

—Məryəm əlini-əlinə çırparaq:

— Boy,—dedi, — qonşu, heç bilirsən o hardadır?— O, çunasının yələnini gündən qamaşan gözlərinin üstdə çəkib əlavə etdi:—Bəlkə heç özünü incitməyəsən, sor-sovqatını verəsən uşaqlar apara. Altayla Tərlan bir-birinə qoşulub gedərlər.

Rəna fikirli-fikirli böyründə dayanmış uşaqlara baxdı. Altayın kiçik qardaşı Sülü maşın Söbətini eşidən kimi anasının ətəyini çəkdi:

—Ana, ay ana, deynən Altay məni də aparsın.

Həyətin o başında əlindəki ciyəni hərlədərək hoppanan Gülüş də qardaşının səsini eşidib tez özünü yetirdi. O da anasının qabağına keçib mıs-mırıqını salladı:

—Ana, bax, Sülü getsə mən də gedəcəyəm,—dedi.

Məryəm bacı sözünü kəsib.

—Bir kiriyin görüm,—deyə uşaqlara çımxırdı. Sonra da Rənaya sarı dönüb dedi:

—Qonşu, heç sənin getməyin məsləhət deyil. Bəs böyük uşaqlardır. Axşama qayıdıb gələrlər. Ə, Altay yoldan keçən maşınlardan soruşarsınız, hansı Narlıqdakı təzə sahəyə getsə, deyərsiz sizi aparar. Bir də indi Narlıq biçənəyində ot çalırlar. O tərəfə gedən maşınlar boş gedib dolu qayıdırlar.

—Rəna razılaşdı. Uşaqlara dedi:

—Gedək sizi yoluzaq edim, bəlkə kolxoz idarəsindən sahəyə gedən oldu.

Rəna uşaqlarla kolxoz idarəsinə gəldi. Həyətdə kimsə görünmürdü. Təkcə kolxozun köhnə qaz maşınını sürən, bığ yerləri təzəcə tərləmiş Mahmud matorla əlləşirdi. Bədəni yarıya kimi maşının altında olduğundan ancaq ayaqları görünürdü. Rəna yaxınlaşıb maşının böyründə durdu. Altay çöməltmə oturub soruşdu:

—Mahmud, yoxsa maşının işləmir?

Mahmuddan səs-soraq çıxmadı. Bir xeyli keçmiş o, maşının altından:

—Ə, niyə işləmir? Lap yaxşı işləyir,—dedi. — O, Rənanı görüb özünü yığışdırdı, mazutlu əllərini əskiyə silə-silə əlavə etdi:—Xoş gördük, bacı, bizə qarşı qulluğunuz?

Mahmud Rənagillə qapıbir qonşu olduğundan mühəndisin ailəsini yaxşı tanıyırdı.

—Mahmud, yolun ha tərəfədir?—deyə Rəna soruşdu.

—Necə bəyəm, hara getmək istəyirsiz?

—Mən getmirəm. Uşaqları Narlıqdakı təzə sahəyə göndərmək istəyirəm.

—Sədr elə ora gedəcək. Dünən axşam tapşırdı ki, maşını sahmana sal, Narlığa gedəcəyik. Ancaq səhər ertə zəng çalıb dedi:—Şəhər komitəsinə çağırıblar, işimi qurtaran kimi gedəcəyəm.—O elə bunu demişdi ki, əlini yola sarı uzadıb əlavə etdi:—Odur ey, özü də gəlib çıxdı.

Sədr əllərini yelləyə-yelləyə darvazanın qarşısında göründü. O, maşının böyründə duranlara ötəri nəzər salıb Mahmuddan soruşdu:

—Hə, maşının sazdırmı?

Mahmud gülümsünərək lovğa-lovğa dedi:

—Mənim maşınımın saz olmayan vaxtı yoxdur!

Sədr kolxoz idarəsinə çıxan pillələrə sarı yollandı, şofer də „bu saat" deyib onun ardınca eyvana çıxdı. Mahmudun getməsi ilə qayıtması bir oldu. Hələ uzaqdan Rənaya dedi:

—Bacı, siz heç narahat olmayın, sədr Narlığa gedir, yolda da dəyəsi yerimiz yoxdur. Uşaqları bir baş Asya xalanın briqadasına apararıq. —Bunu deyib maşının qabaq oturacağını arxaya əydi. Altayla Tərlan da cəld atılıb arxadakı taxta skamyanın üstündə oturdu.

Mahmud sükan dalına keçdi. Bir azdan sədr əllərini cib dəsmalına silə-silə pilləkənləri endi. Başını qaldırmadan maşının böyründə durmuş Rənaya dedi:

—Bacım, yerimiz var, istəsəniz sizi də apara bilərik.

Rəna razılığını bildirdi. Dəsmala bağlanmış qazançanı ehmalca maşının pəncərəsindən uzadıb tapşırdı:

—Altay bala, bir-birinizdən muğayət olun, qazançanı aşırmayın. Fikriniz üstünüzdə olsun. Tərlan, Asya xalaya de ki, bir evə dəysin, ondan ötrü lap qəribsəmişik.

Maşın darvazaya sarı hərəkət etdi. Asfaltı çıxarılmış həyətdə toz qalxdı.

İçərisi taxıl, meyvə, otla dolu maşınları, arabaları elə bil mıncıq kimi bir-birinin ardınca düzmüşdülər. Yolu hər iki tərəfdən əhatə edən kolların, sısqa çinarların üstünü toz basmışdı. Külək vurduqca havadan quru bəlim iyi, bir də acı yovşan qoxusu gəlirdi. Bir neçə gün idi ki, yağış yağmırdı. Axşamlar Çardaxlı meşəsinin üstünü alan qara buludları səhərə yaxın külək vurub dağıdır, uzaq üfüqdə qaralan dağlara sarı qovurdu. Gündüzlər günün istisindən və səhərə yaxın qalxan küləkdən otlar saralıb qaxac olmuşdu. Uzaqdan görünən qobuların üstü ilğım vururdu. Sədr susuzluqdan bağrı çatlamış torpağa baxıb başını yırğaladı:

— Hər il bu yerlərin otu iki-üç dəfə biçilərdi —dedi.—İndi ayaqaltında tamam tərk olub, bütün tikinti materialları buradan daşınır. — O fikrə gedib susdu, sonra əlavə etdi: — Yaxşı ki, Narlıq dərədə yaxşı ot var, iki-üç gün də yağış yağmasa bütün dərənin otunu çalarıq, bu qışı malımızı görər.

Mahmud gözünü asfalt döşənmək üçün hamarlanmış enli torpaq yoldan çəkmədən soruşdu:

—Asya bacının briqadası taxılı tamam biçib qurtardımı?

— Arandakı torpağı kombayınla yığdılar. İndi də qızlar yamacdakı sahəni biçirlər. O yerdə maşın kara gəlmir. Ancaq insafla desək, Asya bacı Narlıqdakı taxılı hasilə gətirib yığana kimi çox zəhmət çəkdi.

Mahmud qaşlarını çatıb böyüklərə məxsus bir əda ilə sədrin sözünü təsdiq etdi.

— Asya bacı kara gələn adamdır, — dedi.

— Elə kara gəldiyi üçün təzə sahəni ona verdik də. O yerdə bu vaxta kimi buğda əkilməmişdi, torpaq xam, ilin əvvəlindəki quraqlıq da bir yandan... Ta kanalın suyu Narlığa gələnə kimi olmazın əziyyət çəkdik. Binəyi-qədimdən, ağlım kəsəndən oraya nə əkilibsə, heç yarısı yığılmamış soyuq düşüb, əkinin üstünü qırov tutub. Bu il isə sahə lap tez səpildi. Ancaq qorxurduq ki, torpağın canı qızmamış səpdiyimizdən ələ bir şey gəlməsin. Səpindən sonra da seyrək yağış yağdı. Torpağın üstü qaysaqlandı. Asya bacı idarəyə gəlib aqranomla məsləhətləşdi; dedi, qorxuram əkini batıraq. İki-üç gün də belə isti keçsə qaysaqlanmış torpaq çatlamağa, göyərib qalxan buğdanın kökünü qırmağa başlayacaq. Yazıq arvad dinclik bilmirdi.

Əvvəl aqranomun məsləhəti ilə maşına mala qoşub sahəyə saldı, gördü ki, yox, malanın dişləri bitkinin kökünü alt-üst edir. Maşın əl vermədi. Axırda o qızları başına yığıb məsləhətləşdi, ertəsi gün səhər sübhdən qızlar əl dırmıqını götürüb düşdülər əkinin içinə...

Səni inandırıram ki, Narlığa bu tezliklə kanal çəkilməsi də onun üzünün gücünə oldu, qoçaq arvaddır, nə fayda savadı azdır.

Altay dirsəyi ilə Tərlanın böyrünə bir dümsük vurub pıçıldadı.

— Asya xalanı tərifləyirlər ey...

Tərlan xısın-xısın gülüb gözlərini qırpdı. Bununla demək istəyirdi ki, bilirəm".

Bir azdan taxılı sovuşan zəmi göründü. Topa-topa yığılmış sarı bəlim komaları günün işığında qızıl kimi parıldayır, bərq vurur, adamın gözünü qamaşdırırdı.

Təpənin döşündə qalan, kombaynın girişə bilmədiyi sahədə işləyən biçinçilərnn güllü yaylıqları sarı sünbüllərin arasında dağ çiçəklərinə oxşayırdı. Arvadlar başlarını qaldırmadan biçir, onlara köməyə gəlmiş uşaqlar da dərzləri başlarına, çiyinlərinə qoyub daşıyırdılar. Onların boyubalaca olduğundan uzaqdan adama elə gəlirdi ki, dərzlər özü yırğalana-yırğalana üzüb gedirlər.

Maşın qoşa söyüd ağaçının böyründə dayandı. Söyüdün altında qurulmuş taxtabəndin üstünə həsir döşənmişdi. İri məcməyiyə stəkan-nəlbəki yığılmışdı. Taxtabəndin böyründə dayanmış qarı gözlərini yumub var gücü ilə sarı samavarın dəmkeşini üfürürdü. Görünür onu dəmkeşdən başqa heç bir şey maraqlandırmırdı, buna görə də maşının səsini, maşından tökülüşən adamların hay-küyünü eləbil eşitmirdi.

Sədr arvadı səsləyir:

— A bacı, bəs briqadiriniz hardadır? — deyə soruşdu.

Qarı nəinki cavab vermədi, heç səs gələn səmtə dönüb baxmadı da.

Mahmud gülümsünərək:

— Eşidir ki, — dedi, — Kişkinə qarı qiyamət qarıdır.

Kolxoz sədri irəli keçdi. Qarı qəfildən qarşısına çıxan adamı görüb diksindi. Tez örpəyini düzəldib dedi:

— Xoş gördük, heydir qardaş, — o, gələnləri bir- bir nəzərdən keçirdi. Ətəyilə taxtabəndin üstünü silib yer göstərdi.—Buyurun sərinlənin, bu saat biçinçilərimiz də gələrlər.

Sədr Mahmuda dedi:

— Soruş gör, briqadir haradadır.

Mahmud qarının qarşısında durub əvvəl əlini yuxrı qaldırdı, sonra da havada silkələdi.

Kişkinə qarı gülümsəyərək soruşdu:

— Hə, böyüyümüzü axtarırsız? Səhər ertə qızların bir dəstəsini özü ilə götürüb biçinçilərə köməyə getdi, — dedi.

Söyüdün böyrünə iki kisə söykəmişdilər. Sədr kisələri açıb baxdı. Kişkinə qarı kisədən bir ovuc dən götürdü, ovçunu sədrin qabağına tutub gülümsünə-gülümsünə:

—Maşallah, buğda deyil elə bil zoğal çərdəyidir,— dedi,—sonra o kisələrə işarə edərək,—toxumluq götürmüşük, deyə əlavə etdi: — Ovcundakı dəni oxşayırmış kimi ehtiyatla əlini əlinin üstünə çəkti, torbanın qıraqlarını qatlayıb, buğdanı yerinə boşaltdı.

Günün işığında kəhraba kimi şəfəq verən sarı buğda ətir qoxurdu. Dənlər o qədər iri və dolu idilər ki, elə bil torpaq kefinin kök vaxtı günəşdən aldığı işığı və qüvvəni bütünlüklə bu bəxtəvərlərə vermişdi. Mahmud buğdadan bir çimdik alıb ağzına atdı:

— Kişkinə nənə, nə qorğalıqdır,—deyib güldü. Kişkinə arvad səliqə ilə kisələrin ağzını bərkitdi. —Toxumluq dənə dəyməzlər,—deyə acıqlandı.

Sədr Mahmuda dedi.

—Yəqin ki, Asya bacı Narlıq dərədəki biçənəyə gedib. Uzaq deyil, get de ki, sədr səni gözləyir.

Mahmud dinməzcə maşına sarı gedəndə Altayla Tərlan da ona qoşuldu. Biçənək dörd bir tərəfdən cır nar ağacları ilə əhatə olunmuşdu. Dərədə çoxlu nar ağacı olduğundan buraya Narlıq deyirdilər. Yaxında dayanmış maşının qabağında üç-dörd qız ot yığırdı. Onlardan biri əl saxlayıb gələnlərə sarı döndü, sinəsinə tökülən qara hörüklərini çiynindən geri atıb: — Ə, Mahmud kimi axtarırsan?—deyə soruşdu.

Mahmud əlini ağzına tutub çığırdı:

— Asya bacını görəniniz varmı?

— Niyə yoxdur, — bu yolla gedib sağa dönün, onlar otbiçən maşının yanındadırlar, — deyə qız sağa burulan ensiz yolu gəstərdi.

Bir az sonra otu qurşağa kimi qalxmış talaya çatdılar. Uzaqdan otbiçən maşının səsi aydın eşidilirdi. Bir dəstə qız maşının ardınca gəlir, tökülәntər otu dırmıxla qotman-qotman komalayırdı. Maşının keçdiyi yerdə bircə

yarpaq da ayaq üstə qalmırdı. Qucaq-qucaq ot yanı üstə əyilib yerə tökülürdü. Bir də görürdün otların arasından pırıltı ilə boz bir quş qalxdı.

Asya xala burada da qızların arasında görünmürdü.

Biçənəyin enli yola baxan sağ tərəfində təkatlı dörd araba durmuşdu. Uşaqlar yol kənarına toplanmış otu arabalara yüklədilər. Mahmud maşını saxladı Altayla Tərlan yerə atıldı. Altay qabaqdakı yüklü arabaya yaxınlaşdı. Yuxarıda ot tayasının üstündə çöməltmə oturmuş qaraşın oğlana üzünü tutub:

— Adil, siz burada nə gəzirsiniz?—deyə soruşdu.

Adil bir-birinin ardınca düzülmüş arabalara hay-küylə ot daşıyan uşaqlara işarə edərək dedi:

— Görmürsən nə qayırırıq, məktəbdən bizi göndəriblər. Maşın çatmır deyə araba ilə daşıyırıq.

Bu vaxt hay-küy qopdu, arxadakı arabaya ot daşıyan qızlar çığırışa-çığırışa ətrafa dağılışdılar. Adil də papağını gözünün üstə endirib geri döndü:

— Ə, orada nə oldu? — deyə çığırdı.

Əlindəki güllü ləçəyi yelləyə-yelləyə Tərlangilə sarı qaçan qız „arı.-arı" deyə çığırırdı.

Sən demə otun içində arı yuvası varmış, qızlar otu yaba ilə qaldıranda yuvanı dağıtmışdılar. Arılar da yuvanın hayfını onlarda qoymaq istəmirdi. Qız qabaqdakı arabaya çatanda durdu.



O, barmağını ağzına alıb sorur, yerindəcə atılıb düşürdü. Görünür arı sancağını bərk batırmışdı. Adil arabanın üstündən çığırdı:

—Bənövşə, turşu bas, üstünə turşu sıx, ağrısı kəsilsin.

Altay nar kollarına sarı qaçdı. Bir-iki kal nar dərib gətirdi. Çır narın turşusu görünür ağrını bir azca kəsdi. Altay nar tikanı ilə arının sancağını Bənövşənin barmağından çıxaranda qız özünü ələ ala bilmədi. Gözləri yaşardı. O, burnunun ucunda dayanmış göz yaşını köynəyinin qolu ilə silərək dedi:

—Nə yaman tərləmişəm.

Bir az sonra Mahmud otbiçən maşının yanından qayıdanda Tərlanla Altayı Adilin yanında ot tayasının üstündə gördü.

Mahmud maşının böyründə durdu. Əlini belinə vurub ətrafa xöz kəzdirdi. Tərlan soruşdu: —Asya xalanı tapdınmı?

—Yox, deyirlər şəhərə kedib. Eşidib ki, sədr onu axtarır, yarım saat əvvəl maşına oturub gedib. Mahmud getməyə hazırlaşırdı, Altay dedi: —Mahmud, sən yubanma, biz uşaqlarla gedəcəyik. Tayanın üstündə çöməltmə oturub cilovu əlində qoşalayan Adil də əlavə etdi:

—Nigaran qalma, biz bu saat yola düşürük. Mahmud narazı qalsa da dinmədi. Maşına oturub getdi. Bir az sonra təkatlı arabalar bir-birinin ardınca Narlıq dərə yoxuşunu qalxmağa başladılar. Qabaqdakı səmənd madyan yoxuşu ağır-ağır qalxırdı. Təkərlər cırıldayır, onlardan quru ot iyinə qarışmış tünd qətran qoxusu gəlirdi.



Adil cilovu boş buraxmışdı. Səmənd madyan iri, tüklü ayaqlarını təmkinlə atır, arabir başını tərpədərək gözünə-ağzına doluşan zəhlətökən payız milçəklərini qovur, boynunun dərisi səyridikcə şəvə kimi qara yalı titrəyirdi. Adil şapkasının içərisindən sarımtıl, uzun bədənli bir zəvzək çıxarıb ağzına tutdu. Dodaqlarını büzərək tütək kimi sızıldada-sızıldada çalmağa başladı. Adama elə gəlirdi ki, ətrafda alaçöhrələr ötür. Tərlan hələ şehi qurumamış ot tayasının üstə üzüqoylu düşüb zəvzək otunun meşələr, yaşıl çəmənlər, şır-şır bulaqlar haqqındakı nəğməsini dinləyirdi. Adil uzaqdan görünən Çardaxlı meşəsini göstərib dedi:

—Altay, keçən il meşədə fısdıq yığdığımız günlər yadındamı?

Altay dirsəyi üstə qalxdı, başını tərpədib gülümsədi. Uzaqda qaralan meşəyə fikirli-fikirli baxıb dedi:

—Bu il də gedərik,—dedi, sonra Tərlana sarı dönüb əlavə etdi:—Keçən payız bir gün uşaqlarla meşəyə getmişdik. Qayıdanda adama bir ətək fısdıq gətirdik. Ciblərimiz də fısdıqla dolu idi.

—Fısdıq ağacı çox uca olur. Siz ora necə çıxırdınız?—deyə Tərlan soruşdu.

Adil gülümsünərək Altaya baxdı:

—Biz çıxmırdıq. Siçanlara deyirdik, çıxıb torbalarımızı doldururdular.—O, Tərlanın təəccüblə baxdığını görüb Altaya göz vurdu. —İnanmır ey...—dedi.

Bu ara eniş başladığından o cilovu dartdı. Adilin əvəzinə Altay dilləndi:

—Adil düz deyir, siçanlar meşədə quru fısdığı daşıyıb ovuqlara yığır, üstünə də quru yarpaq tökürlər ki, dəyib-toxunan olmasın. Biz də ovuqları axtarıb tapır, siçanların payını ciblərimizə doldururduq.

Yol çox eniş olduğundan adama ilə gəlirdi ki, səmənd madyan yükün ağırlığına dözməyəcək, arabanı aşıracaq. At isə özünü geri basır, dal ayaqları üstə çökə-çökə təpəni enirdi. Boynunu da elə əymişdi ki, az qalırdı

xamut başından aşsın. Adil yüyəni tarım tutmuşdu. Təpənin dik enişini yenicə keçmişdilər ki, birdən Tərlan çığırdı:

—Ə, ora baxın, araba kör neçə böyrü üstə əyilib.

Altayla Adil cəld dönüb geri baxdılar. Hamıdan axırda gələn Yapalaq Həsənin arabası böyrü üstə əyilmişdi.

Adil səmənd madyanın ağzını yana çevirib arabanı saxladı. Arxada gələn arabalar da durdular. Adillə Altay otun üstündən sürüşüb yerə atıldılar. Böyrü üstə əyilmiş axırıncı arabaya sarı cumdular.

Arabanın sağ təkərləri yuxarı qalxdığından o ancaq sol çarxların üstündə gəlirdi. Otun üstündə çöməltmə oturub başını dizinə seykəyən Yapalaq Həsən isə yuxuya getmişdi. Cilov onun boşalmış əlindən sallanırdı.

Adil hələ uzaqdan:

—Ayə, arabanı sola ver, sola ver,—deyə çığırırdı.

Arabaçı isə heç qımıldanmırdı da. O biri arabalardan da uşaqlar tökülüşüb gəldilər. Səs-küyə arabaçı diksinib ayıldı. Cilovu cəld çəkdi.

Uşaqlar sol tərəfdən çiyinlərini verib arabanı düzəltdilər. Araba yavaş-yavaş dikəldi. Sağdakı təkərlər də torpağa yatdı. Həsən özünü tamam itirmişdi. O, qorxmuş halda ətrafına baxırdı. Adil onu o ki, var danladı, sonra da ayağından yapışıb yerə saldı. O, yuxulu gözlərini döyür, üst-başını çırpa-çırpa deyirdi:

— Nə düşmüsünüz üstümə, mən nə biləydim ki, belə olacaq... Heç elə bil özləri arabanın üstündə yatmırlar...

Axırda Adil hirslənib Altaya dedi:



— Yapalaq Həsənə çox da ümid etmək olmaz. Bir də gördün yenə yatdı. Çıx arabanı sür.

Altay ayağını qozlaya basıb otun üstünə dırmaşdı. Adil cilovu qoşalayıb yuxarı atdı. Hamının Yapalaq Həsən dediyi bəstəboy, kök oğlan da Altaya çəpəki-çəpəki baxdı. O, mısmırığını sallayıb dinməzcə Altayın böyründə oturdu.

Bir azdan sonra hər kəs öz arabasına sarı getdi. Adilin arabası yola düşəndə dalca gələn o biri arabalar da yerindən tərpəndi. Tərlan papağını yelləyib axırda gələn təkatlı arabanın üstdə dik oturan Altayı hayladı.

Arabalar sağ-salamat Çardaxlıya gəlib çatanda gün artıq əyilmişdi.

## BUĞA İLƏ VURUŞAN OĞLAN

Səhər Kəkliklə Tərlan Altayı evdə tapmadı. Baıcısı Məryəm dedi:

— Harda olacaq! Onu itirirsən, Eyvaz babamın yanında tapılır. Yenə əlbət şitilliyə qaçıb da!

Uşaqlar bağçılıq təsərrüfatına getdilər. Məryəm yanılmamışdı. Altay burda idi. O, Eyvaz babanın yanında çöməltmə oturub nəyə isə baxırdı. Eyvaz baba əlindəki ədəsəni sünbülün dənləri üstündə gəzdirə-gəzdirə deyirdi:

— Bir bax, andır xortumu ilə dəni neçə sorur!

Altay da ədəsənin üstünə əyilib baxır, dəqiqəbaşı deyirdi:

— Ay aman, bu nə dəhşətli həşəratdır. — O, başını çevirəndə Tərlanla Kəkliyi böyründə gördü. Uşaqlar da hərəsi bir tərəfdən əyilib ədəsəyə baxdılar. Sünbülün üzərində gəzən boz həşərat aydın görünürdü. Kəklik üzünü turşudub başını yırğaladı:

— Püf, yaman iyrənc şeydir, — dedi. Sonra da fikirli-fikirli soruşdu: — Baba, birdən bu qurd məhsulu basdı, onda nə edərlər?

Eyvaz baba dedi:

— İndi çürbəcür dərmanlar çıxıb. Qarşısını tez almaq olur. Ancaq əvvəllər bu böyük bəla sayılırdı. Yadımdadır. Bir il bu həşərat bizim bütün ətraf kəndləri ac-yalavac qoydu. Bir il də pambığımızı çəyirtkə basdı. Bir də gördük ki, çəyirtkə duman kimi başımızın üstünü aldı. Çəkdiyimiz zəhmət bütün zay olurdu. İndi nə var ki, bir göz qırpımında təyyarə düz-dünya tarlanı dərmanlayır. Çəyirtkənin, sovkanın, həşəratın izi-tozu qalmır

Eyvaz baba ədəsəni çibinə qoyub ayağa durdu. Nə isə fikirləşdi, üzünü uşaqlara tutub dedi:

— Gəlmişkən işə yarıyın. Qızlarımız o tərəfdə cığdan döşəkcə hazırlayırlar, siz də onlara kömək edin.

İlin soyuq aylarında şitilləri şaxtadan qorumaq üçün Eyvaz baba cığdan, qarğıdalı yarpağından, bəlimdan döşəkcələr hazırlatdırardı. İndi də babanın əlinin altında işləyən Gülzarla Telli söyüd ağacının kölgəsində oturub qışa döşəkcələr hazırlayırdılar. Eyvaz baba qızlara sarı döndü:

— Qızım, Telli,—deyə çağırdı. Əlilə uşaqlara işarə edərək, — bunları da işə cəlb edin.

Uşaqlar Gülzarla Tellinin qabağında çöməltmə oturdular. Telli yumşaq bəlimdən toxuduğu həsiri uşaqlara göstərərək: „Bax belə, bax belə" deyirdi. Kəklik diqqətlə Tellinin əlinə baxandan sonra işə başladı. Altayla Tərlan nə qələr çalışdısa bir şey çıxmadı. Axırda Tərlan ayağa durub lovğa-lovğa dedi:

— Eh, bu arvad işidir.

Telli onun sözünü kəsdi:

— Paho, sən bir kişiyə bax,—deyib güldü. — Yoxsa kişi işi ortada yeyib, qıraqda gəzməkdir?!

Tərlan dediyinə peşman oldu. Kəkliklə Gülzar da onun üstünə düşüb o ki, var dedilər.

Söyüdün böyründəki su kranına uzun rezin şırnaq keçirilmişdi. Şırnaqdan şaqqıltı ilə sərin su axırdı. Tərlan şırnağa işarə edib soruşdu:

— Di yaxşı bir giriyin görək. Telli bacı, şırnaqdan gələn su içməlidir?

— Niyə içməli deyil. Xalis bulaq suyudur.



Tərlan şırnağı qaldırdı, ağzını fəvvarə vuran suyun altına tutdu... Elə bu vaxt söyüd kölgəsində oturan qızların çığırtısı eşidildi. Tərlan şırnağı yerə atdı. Nə görsə yaxşıdır!..

Şitilliyin çay kənarına baxan sağ tərəfində köhnə bir mərək



vardı. Mərəyin damı yanı üstə əyilmiş, üstünü də ot basmışdı. Həmin mərəkdən şitillikdə anbar kimi istifadə edirdilər. Mərəyin içərisinə köhnə

həsirləri, yanı-yörəsi sınmış dibçəkləri, çərçivələri, gərəksiz şeyləri yığardılar. Qapısı da həmişə bağlı olardı: ancaq onun küçə tərəfdən damı lap yatmış, yerlə-yeksan olmuşdu. Eyvaz baba şitillik zonalararası stansiyaya çevrilənə kimi mərəyi söküb yerini təmizləmək, barının bu hissəsini səliqəyə salmaq fikrində idi.

Tərlan başını qaldırıb baxanda gördü ki, fermanın buğası qabaq ayaqlarını mərəyin damına dayayıb. Fermada buğa üçün xüsusi bir yer ayrılmışdı. O, həmişə bağlı olardı. Ancaq yenə həmin buğanın yanından ehtiyatla keçib gedərdi.



Buğanın boynundan yoğun bir kəndir sallanırdı. O yeridikcə kəndir ayaqlarına dolaşırdı. Buğa kəndiri ağzına alıb çeynəyir, o tərəf-bu tərəfə gəzdikcə sinəsi körük kimi qalxıb enirdi. Qızlar çığıra- çığıra darvazaya sarı qaçırdılar. Bu vaxt kimsə əlindəki qırmancı hovlaya-hovlaya mərəyin damına qalxdı.

Şitilliyin o başından Eyvaz babanın səsi gəldi. O:

— Ayə, qoymayın, bütün şitilləri kor qoydu, ay uşaq, buğanın başını döndər,— deyib çığırırdı.

Buğa başını yana əyib ayağı altındakı şişə çərçivələrə əvvəl bir çəpəki nəzər saldı, sonra buynuzu ilə onları yoxladı. Şüşə çərçivələr cingilti ilə qırılıb töküldü. Çərçivələrin cingiltisi Altayı elə bil yuxudan oyatdı. O,

söyüd ağacının altındakı iri səbəti qalxan kimi əlində tutub buğanın üstə cumdu: buğa da başını əyib uşağın üstünə gəldi. Onun qızmış gözlərindən qəzəb yağır, ağzından yapışqanlı selik axırdı. Altay özünü itirməyib əlindəki səbəti buğanın üstünə atdı. Səbətin dəstəsi buğanın buynuzlarına keçdi Buğa başını silkələyəndə səbət tamam üzünü tutdu. O, başını aşağı salıb yerində fırlanır, dal ayaqları ilə yeri qazırdı. Altay büdrədi, özünü saxlaya bilməyib dizi üstə yıxıldı, ancaq cəld ayağa durdu. Bu müddətdə yerə mıxlanıb qalmış Tərlan şırnağı qaldırıb suyu buğanın üstünə tuşladı. Buğa mərəyə sarı həslədi, bu vaxt fermanın çobanları özlərini yetirdilər.

Buğanı sahədən çıxarandan sonra hamı Altayın başına yığışdı. Buğa fırlananda təpiyini Altayın baldırına vurmuşdu. Uşaq isti-isti ağrını hiss etmədiyindən durdu, ancaq birdən başı gicəldi. Gülzarla Telli tez onun qolundan yapışdılar. Eyvaz baba özünü itirmiş halda Altayı qucağına alıb:

— Ay mənim ağıllı balam, heç adam da gözü qızmış buğanın qabağına gedər, — deyə nəvəsini danlayırdı. —Yaxşı ki, salamat qurtardın.



Altayı evə gətirib çarpayının üstə yıxdılar. Həyət uşaqla dolu idi. Onlar bir-birlərinə Altayın buğa ilə vuruşmasından danışırdılar. Yarımca saatın

içində elə bil bütün Çardaxlı uşaqlarına xəbər eləmişdilər. Bir az sonra həkim gəldi. Altaya iynə vurmaq istəyəndə Kəkliklə Tərlan dura bilməyib həyətə qaçdılar. Uşaqlar Kəkliyi araya alıb soruşdular:

—Necə oldu? Sən lap gözünlə gördün?

— Altay buğanın qabağını necə kəsdi?

Kəklik bilmirdi ki, üstünə yağdırılan sualların hansına cavab versin. Ona görə də durub uşaqların üzünə baxırdı. Tərlan gülümsünərək dedi:

— Eh, siz də soruşmağa adam tapdınız. Kəklik buğanı görən kimi elə qaçdı ki, heç izi-tozu da görünmədi.

Kəklik qızardı, sonra acıqlı-acıqlı Tərlana baxdı:

— Sən deyəni qaçmayaydım? Buğanın qabağına çıxaydım? Bəyəm bircə mən qaçdım. Gülzarla Telli də qaçdı da. —O nə fikirləşdisə əlavə etdi: —Ancaq Tərlan, sən şırnağı buğaya tuşlamasaydın o Altayı bir təhər eləmişdi.

...Altay bu yatmaqla üç həftə yatdı. Onun dizdən aşağı qıçını gipsə salmışdılar. Üç həftə sonra o yataqdan qalxanda başı hərlənirdi, ayağını yerə asta-asta basırdı. Ancaq qıçı daha ağrımırdı. Bir səhər anası ona dedi:

— Altay, dur bir həyətə çıx, gəz ayağın açılsın. İki gün sonra məktəbə gedəcəksən.

Altay həyətə çıxdı, ləklərin çoxusu boşdu. Anası yelpənəyi, pomidoru dərib eyvandakı iri çəlləkdə duza qoymuşdu. Yerkökünü çardağa yığıb üstünə də qum səpmişdilər ki, çürüməsin. Ancaq boranı tağları hələ göydü. Enli yarpaqların altında böyrünü yerə verib tənbəl-tənbəl yatan göyümtül, narıncı boranılar hələ də torpağın şirəsini sorub qarınlarını şişirdirdilər. Günəbaxanın tumları qapqara qaralmışdı. Altay səkinin kənarında oturdu. Ağacdan böyrü saralmış bir yarpaq qopdu, havada pərvaz edib könülsüz-könülsüz yerə düşdü: külək vurduqca qarağacın kağız kimi xışıldayan yarpaqları bir-bir saralmış otların üstünə düşürdü. Çəyirtkələr yerə yatmış yarpaqların arasından sıçrayıb çıxır, payız günəşinin ilıq şüalarında qanadlarını isitmək üçün atılıb düşürdülər. Zəncirotu çiçəklərinin

başından qopan pərqu papaqcıqlar külək vurduqca havaya qalxır, o çiçəkdən-bu çiçəyə, o otdan-bu ota ilişirdi Qarışqalar görünür payızın yetişdiyini hamıdan çox hiss edirdilər. Onlar dinclik bilmədən səhərdən axşama kimi gəzir, öz1ərinə qış azuqəsi hazırlayırdılar. Hər səhər qarağacın eyvana baxan haça budağına qonub başındakı tacı əsdirə-əsdirə „bub-bub, bub-bub" edən şinəbubun da səsi kəsilmişdi. Görünür quşların çoxu isti yerlərə köçüb getmişdi...

## XOŞ GƏLMİSİNİZ!

İki gün sonra uşaqlar dağ ətəyində qırmızı tüfdan tikilmiş, qabağı ağ sütunlu məktəbə getməyə hazırlaşırdılar. Tərlanla Kəklik hey gəlib xəbər gətirirdilər ki: „Məktəb daha hazırdır, sinif otaqlarının pəncərələrini yuyurlar, döşəməni silirlər, kitabxananı səliqəyə salırlar" Bir gün də gəlib dedilər ki, „koridorlara qəribə elektrik zəngi çəkilib. O, elə yaxşı, elə gözəl səslənir ki, lap elə bil pioner şeypuru çalırlar".

Çardaxlı küçələri bu gün elə bil həmişəkindən tez oyanmışdı. Səhər gün çıxar-çıxmaz qapıları açılıb örtülür, uşaqlar əllərində çiçək dəstələri küçəyə çıxıb aramla məktəbə sarıq gedirdilər.

Tərlanla Asya xala və Rəna ilə eşiyə çıxanda Kəkliklə Altay onu küçə qapısında gözləyirdi. Asya xala üzünü Rənaya tutub dedi:

— Ay aman, gör küçədə nə qədər uşaq var! Bunlar bu vaxtacan harda imişlər! Dünən-sırağa gün heç gözə dəymirdilər.

Sonra o, əli çantalı uşaqlara baxıb:— Sizin təzə məktəbiniz mübarək olsun, — dedi. — O gün olsun məktəbi qurtarıb böyük müəllim olasız.

Altayın boynunda qırmızı pioner qalstuku vardı. Tərlan həsədlə onun qalstukuna baxdı. Altay yeriyəndə sağ əlindəki ağaca dayanırdı. Təzə portfelini sol əlində tutmuşdu, Kəkliyin qoltuğunda isə iki dəstə- çiçək vardı. Altayın çiçəklərini də o aparırdı. Bu çiçəkləri uşaqlar özləri yetişdirmişdilər.

... Məktəbin qabağına xeyli adam yığışmışdı. Ortadakı iki sütünun arasına qırmızı lent çəkilmişdi. Qapının üstə vurulmuş qırmızı parçanın üzərində iri ağ hərflərlə:

„Çardaqlı uşaqları, təzə məktəbə xoş gəlmişsiniz!" sözləri yazılmışdı.

Məktəb böyük bir meydançaya baxırdı. Meydançanın sağ və sol tərəfində tikinti işləri gedirdi. Məhəccərlə əhatə olmuş gələcək bağın içərisində hələlik heç bir şey yoxdu, ləklər boşdu. Məktəbin qabağına toplaşmış uşaqların əllərində iri çiçək dəstələri vardı. Uzaqdan baxana elə gəlirdi ki, məktəb binasının qarşısında gözəl bir güllük salınmışdır.

Tərlan Kəklik və Altayla irəli keçib qırmızı lent çəkilmiş sütunların qabağında durdu.

Məktəbin qapısı açıldı. Qapıdan cavan bir oğlan göründü. O, ağ köynəyinin üstündən qırmızı qalstuk taxmışdı. Altay oğlanı göstərib dedi:

—Keçən il bizim məktəbimizdə baş pioner dəstə rəhbəri idi. Deyirlər indi də bu məktəbdə işləyəcək.

Qara saçlarını yana vermiş, ağ köynəyinin qollarını dirsəyə kimi çırmamış oğlana Tərlan diqqətlə baxıb soruşdu:

—Adın nədir?

Altay pıçıldadı:

— Biz ona „yoldaş Fikrət" deyirdik.

Cavan oğlan adını eşidib ətrafa göz gəzdirdi. Qırmızı lentin yanında hamıdan qabaqda duran Altaygilə baxıb gülümsədi, sonra Altayı başdan-ayağa süzdü, onun əlindəki ağaca baxdı, qaşlarını çatıb nə isə fikirləşdi, yaxın gəlib dedi:

— Altay sənsən? Deyirlər, teriodor olmusan, buğa ilə vuruşmusan?

Altay başını aşağı saldı. Fikrət əlini onun çiyninə qoyub dedi:

— Afərin, qoçaq oğlansan!

Ətrafda duran uşaqlar da Altaya işarə edib, pıçıldaşmağa başladılar.

Müəllimlər və məktəb müdiri eşiyə çıxdı. Saat səkkizin yarısı idi. Fikrət məktəb müdirinə yanaşıb nə isə dedi: o, ətrafa göz gəzdirdi, nəhayət

nəzərləri Tərlangilin dəstəsində dayanıb durdu. Müdir əlini yuxarı qaldırıb uşaqları sakit edəndən sonra sözə başladı:

—Əziz balalar, uzaqdan baxanda adama elə gəlir ki, məktəbimizin qarşısında gözəl bir güllük salınmışdı. Arzu edirəm sizin hər birinizin həyatı bu çiçəklər kimi gözəl və yaraşıqlı olsun. Sizin əməlləriniz bu çiçəklər kimi elimizin həyatını bəzəsin. Ata-analarınız, müəllimləriniz sizinlə fəxr etsinlər. Bu gün bizim şəhərimizin tarixində əlamətdar bir gündür. Dağların böyrünə sığınmış kiçik bir kənddən möhtəşəm şəhərə çevrilmiş Çardaxlıda ilk dəfədir ki, onillik, politexniki təhsil əsasında qurulmuş orta məktəb açılır... Məktəbimizin tarixi sizinlə başlayır... — Sözünün axırında o dedi:

— İndi icazə verin bu qırmızı lenti kəsib, sizi gözəl məktəbimizə dəvət edək. — Fikrət yaxın gəlib əlindəki qayçını müdirə uzatdı. Müdir uşaqları nəzərdən keçirdi, sonra iki addım qabağa keçib əlini Altayın çiyninə qoydu:

— Al, bala, — dedi, — lenti kəs.

Altay belə gözlənilməz təsadüfdən özünü lap itirdi. 0, yan yörəsinə baxdı. Bu vaxt sarıbəniz bir oğlan irəli cumdu; qayçını müdirin əlindən çəkmək istədi. Müdir gülümsünərək:

— Sənə demədim, qoy lenti bizim qoçaq oğlan kəssin, — dedi.

Altay qabağa gəlib qırmızı lenti iki böldü. Hamı içəri keçdi. Məktəbi səs-küy bürüdü. Qapının ağzına qoyulmuş reproduktor ucadan dedi: „Uşaqlar, bizim təzə məktəbimizə xoş gəlmisiniz!"

Babayeva Ələviyyə Hənifə qızı

M ə n  t ə k  d e y i l ə m

Redaktoru İ l y a s T a p d ı q. Bədii redaktoru Y. A ğ a y e v.

Texn. redaktoru V. A v a d e y e v a. Korrektoru F. Q a s ı m o v a.

Çapa imzalanmış 25/XII-1961-ci il. Formatı 60X84 6 ç. v. Nəşr. v. 4,5. Sifariş 582. Tirajı 20000. Qiyməṫi 17 qəp.

Uşaqgəncnəşr. Bakı, Fioletov küçəsi, 8.

Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 26 Komissar adına mətbəəsi, Bakı, Əli Bayramov küçəsi. 3.